# Tarixi şəxsiyyətlər haqqında xalqın öz sözü var

Mən folklorçuyam. El-el, oba-oba gəzmək peşəmdir. Yarım əsrdən artıqdı ki, xalqımızın sinələrdə, zehinlərdə yaşayan və qorunub saxlanan bədii söz sərvətini yazıya almaqla məşğulam. Siyasətçi deyiləm. Lakin xalq nəyi sevirsə, nəyi yaşadırsa, mən onu öz mövqeyim hesab edirəm. Folklor tarixin və tarixi hadisələrin fotosurətini çıxarmır. O, tarixi şəxsiyyətin və ya hər hansı xeyirxah insanın davranışını, tarixin müəyyən kəsiyində gördüyü işləri, onun həyatı ilə bağlı hadisələri, macəraları xalq təfəkkürünün bədii boyaları ilə obrazlaşdırır. Tarixi şəxsiyyəti tarixdə başqa cür, xalqın yaratdığı əfsanə və tarixi rəvayətlərdə isə bir başqa cür görmək olur. İsgəndər Zülqərneyn, Ənuşirəvan, Şah Abbas və Nadir şah haqqında tarixdə olduğundan çox fərqli nağıl və rəvayətlər yaranmışdır. Mən burada yerinə düşdüyündən Nadir şah haqqında yerli bir rəvayəti xatırlamaq istəyirəm:

«Nadir şah Şəmkirin Koltəhnəli kəndinə gəlir. Camaat, xüsusən ağsaqqallar Nadir şaha sayqı göstərmirlər. Çünki o, Şəmkir qalasını dağıtdırmış və Bəbir kimi igidi məhv etmişdi.

Vəzir kənd ağsaqqallarına bildirir ki, qarşınızdakı Nadir şahdır.

Ağsaqqallar birdən dillənir:

- Şahdır özünə, bizə nə?

Nadir şah geri dönür. İrana qayıtdıqdan sonra tələb edir ki, Koltəhnəlidən bir ağsaqqal gəlib mənim suallarıma cavab verməlidir, əks təqdirdə kənd qılıncdan keçiriləcəkdir.

Kənd ağsaqqallarından biri deyir ki, onun suallarına cavab verməyə mən gedəcəm. O, inək dərisinin qol yerlərini deşib əyninə geyinir və şahın hüzuruna gəlir.

Aqil qoca Nadir şaha bildirir ki, Koltəhnəlidən mən gəlmişəm, suallarınıza cavab verməyə hazıram.

Nadir şah sual verir:

- İsgəndər Zülqərneyn qoçaq olardı, yoxsa mən?

- Əlbəttə, Siz. İsgəndər Zülqərneyn hökmdar Filippin oğlu idi. O, ənənəyə görə hakimiyyətə gəlməli idi, gəldi. Sizin atanız, babanız, hökmdarlığın nə olduğunu bilməyib, amma Siz qaçaq-quldurun biri ola-ola zor gücünə hakimiyyətə gəlmisiniz.

Nadir şahın ikinci sualı belə olur:

- Şah Abbas nüfuzlu hökmdar idi, yoxsa mən?

- Əlbəttə, Siz. Şah Abbas Səfəvi nəslindən idi. Ondan əvvəl dağ kimi Şah İsmayıl Xətai dayanırdı. Buna baxmayaraq Şah Abbas nə qədər ağıllı olsa da, öz mənliyini, nüfuzunu qorumurdu. Dərviş libası geyinib qapı-qapı gəzirdi. Ailələrə baş çəkirdi və ölkənin durumunu bu yolla öyrənirdi. Siz isə atanız, babanız görmədiyi halda tacı başınıza elə qürurla qoymusunuz ki, o libası soyunub heç vaxt dərviş paltarı geyinməzsiniz.

Rəvayətə görə, Nadir şahın üçüncü sualı belə olur:

- Həzrət Əli qoçaq, güclü pəhləvan olardı, yoxsa mən?

- Şah, daha bir o qədər qələt eləməyin.

Adi kəndlinin özünəməxsus qənaəti, kəskin cavabı şahın xoşuna gəlir, ona dəyərli hədiyyələr verir».

Folklor nümunələri yaranarkən yazıya söykənmir, şifahi şəkildə yaddaşlara ötürülür. Yaddaşlarda o söz qalır ki, ağlabatandır, onda böyük hikmət var. Xalqın belə tarixi rəvayətləri bədii cəhətdən təsviri romanlardan, hekayələrdən daha güclü olur. Xalq özünün yaratdığı örnəklərdə tarixi

hadisələrin pozulub-pozulmamasına o qədər də əhəmiyyət vermir. Lakin hər zaman bədii sözün qüdrətinə sadiq qalır.

Mən bu tarixi rəvayəti söyləməklə belə bir qənaəti nəzər-diqqətə gətirdim ki, xalq dövrün siyasətinə uyğun deyil, öz ürəyindən, beynindən keçənlərə, içindən gələn səslərə uyğun nə isə yaradır, bir nəsildən digərinə yadigar qoyub gedir.

M.C.Bağırov tarixi şəxsiyyətdir. Uzun müddət Azərbaycanın rəhbəri olmuş, respublikamızı bir çox bəlalardan qorumuşdur. Böyük Vətən müharibəsi illərində çeçen, inquş, qaraçay, məhsəti türkləri, krım tatarları və başqalarını öz yer-yurdlarından qoparıb başqa torpaqlara köçürmüşlər. Lakin M.C.Bağırov o zaman yenilməz bir qüvvəyə, nüfuza, basılmaz orduya bərabər bir güc nümayiş etdirmiş və onun dönməzliyinə görə Azərbaycan xalqını dağ kimi, qaya kimi yerindən tərpədən olmamışdır.

Hətta Mikoyan Qərbi Azərbaycanda yaşayan soydaşlarımızı da Qazaxıstanın çöllərinə sürgün etdirmək istəmişdir. 1947-1948-ci illərin köç hadisələri hamının yadındadır. O dövrdə də M.C.Bağırov İrəvanın ayrı-ayrı bölgələrində yaşayan soydaşlarımızı da himayə etdi. Onların Azərbaycanda məskunlaşması üçün hər cür şərait yaratdı. Öz xalqı ilə bir yerdə yaşamaq imkanına malik oldu. Soydaşlarımızı Qazaxıstanın soyuq çöllərində məhv olmağa qoymadı. Onlara ikinci bir həyat verdi. M.C.Bağırovun Vətən və Vətən övladları qarşısındakı bu tarixi xidmətlərini unutmaq insafsızlıq olardı.

M.C.Bağırovun bu xidmətləri onu xalqın gözündə əzəmətli dağa çevirmişdir.

Bir neçə ildir ki, yerlərdə folklor nümunələri toplayarkən M.C.Bağırov haqqında söylənən tarixi rəvayətlərə də biganə qalmamışam.

M.C.Bağırov, ağsaqqalların deməsinə görə, məğrur və yenilməz adam imiş. O, Stalinin otağına üst-başı yoxlanılmadan, hətta silahlı gedirmiş. Stalinin yanında Bağırovun belə inam və nüfuz qazanmasına səbəb o idi ki, Zaqafqaziyada inqilab illərində Stalin Gürcüstanda və Ermənistanda nadir hallarda olmuş, həyatı daha çox Bakıda keçmişdi. O, burada Azərbaycan xalqının humanistliyini, insanpərvərliyini, qonaqpərvərliyini, sədaqətini, cəsurluğunu və igidliyini dəfələrlə sınaqdan keçirmiş və diqqət yetirmişdi ki, bunların hamısı M.C.Bağırovun şəxsiyyətində cəmlənmişdir.

Bakı Böyük Vətən müharibəsində cəbhəni neftlə təmin edirdi. M.C.Bağırovun rəhbərliyi altında neftçilər normadan artıq işləyirdilər. Cəbhəni neft və benzinlə vaxtlı-vaxtında təmin edirdilər. M.C.Bağırov hərbi şuranın üzvü idi. Tez-tez döyüş cəbhəsinin ön xətlərinə səfərlər edir, azərbaycanlı əsgərlərin vəziyyəti ilə yaxından tanış olurdu. Bəzən cəbhə xətlərində azərbaycanlı əsgərlərə soyuq münasibət bəsləyən yaramaz komandirləri yerindəcə cəzalandırırdı. Həmçinin baş vermiş xoşagəlməz hadisə barədə dərhal Stalinə məlumat çatdırırdı. Stalin ömrünün sonuna qədər M.C.Bağırovun qətiyyətini bəyənmiş və onun hər bir sözünə, təklifinə diqqət yetirmişdir. Mikoyan demək olar ki, Stalinlə hər gün bir yerdə idi. Məqsədi azərbaycanlıların əleyhinə danışmaqla, hər necə olur-olsun, onları öz dədə-baba yurdlarından qoparıb Qazaxıstan çöllərinə köçürmək idi. Ancaq M.C.Bağırovun bir kəlməsi Mikoyanın qurduğu, yaratdığı hiylə torunu bircə anda dağıdırdı. Çünki Stalin M.C.Bağırovu bütöv şəxsiyyət kimi tanıyırdı. Stalin M.C.Bağırovla hər an hesablaşırdı. Bakıda olmasına baxmayaraq, bütün Sovetlər məkanında M.C.Bağırov öz nüfuzunu hiss etdirirdi. Tbilisidə və Yerevanda bir münaqişə baş verdikdə Stalin Bağırovu

oraya göndərirdi. Bir sözlə, M.C.Bağırov böyük nüfuz sahibi, sayılıb-seçilən şəxsiyyət idi.

Toplanan rəvayətlərdən və xalq söyləmələrindən belə bir məntiqi nəticə çıxır ki, Stalin M. C. Bağırova bir şəxsiyyət kimi yüksək qiymət vermişdir. Hətta onun gücünü, qüdrətini özü ilə yanaşı tuturmuş. Vaxtı ilə Nəriman Nərimanovu irəli çəkmək əvəzinə aparıb Moskvada məhv etdikləri kimi M.C.Bağırovu da həmin yolla aradan götürmək istəyirdilər. Mikoyan Beryaya yaxınlaşıb deyir:

- M.C.Bağırov böyük adamdır. Nə vaxtacan Mərkəzi Komitənin siyasi bürosuna namizəd olacaqdır. O cür cəsarətli adamı həmişə namizəd saxlamaq insafsızlıqdır. Onu siyasi büroya üzv seçmək, Moskvaya gətirmək lazımdır. Berya siyasi büronun bir iclasında bu təklifi Stalinə çatdırır. Stalin cəld ayağa qalxıb deyir:

- M.C.Bağırovu Moskvaya gətirsək, gərək Qafqaza mən özüm gedim. Qafqazı indiki şəkildə saxlayan, öz nüfuzu ilə tənzim edən, hər bir respublikaya öz yolunu tanıdan M.C.Bağırovdur.

Elə Stalinin bu sözlərindən də aydın görünür ki, Bağırovun zəhimli, nüfuzlu, istedadlı bir rəhbər olduğu tam aydınlığı ilə özünü hiss etdirir.

Hər şəxsiyyət haqqında əfsanə və rəvayət yaranmır. Xalq o şəxsiyyəti obrazlaşdırır, folklor qəhrəmanı edir ki, o, heç zaman xalqın xatirəsindən çıxmasın, dildə-ağızda gəzsin, yaddaşlara həkk olunsun.

M.C.Bağırov haqqında qəzetlərdə yazılarımı oxuyandan sonra adamlar mənə daha çox müraciət etməyə başladılar. Mən həmin gündən «Mir Cəfər Bağırov yaddaşlarda» adlı kitab nəşr etdirməyi qərara almışam və eşitdiklərimin hamısını kağıza köçürməmişəm. Bir folklorşünas kimi M.C.Bağırov haqqında özümün də xüsusi

qənaətlərim var. Söz söyləyənin həyata baxışı, mövqeyi, amalı, mənliyi önəmlidir. Həyatla səsləşən, M.C.Bağırovun cəsarətinə və şücaətinə cavab verən mühüm əhvalat və rəvayətlər mənim üçün daha qiymətlidir.

Mir Cəfər Bağırov ona görə böyük insandır ki, o, yuxarıda dediyimiz ən keşməkeşli, çətin illərdə Azərbaycanın bütövlüyünü qoruyub saxlaya bilmişdir. Azərbaycan xalqının ölməz bir atalar sözü var: «Əzizini itirən bir il ağlar, vətənini itirən ömrü boyu». Biz Vətənin bir parçasını itirmişik. Ölənimiz, qalanımız qəlbimizi göynətsə də, onu yeni doğulan körpələr əvəz edir, müəyyən dərəcədə bizə təskinlik verir. Lakin torpaq itkisi gecə-gündüz xəyalımızdan çıxmır, gözlərimizin yuxusunu ərşə çəkir. Vətən dərdi, torpaq dərdi heç nə ilə əvəz oluna bilməz. Böyük Vətən müharibəsi illərində çox ailələr başsız qaldı, oğlu əsgər getmiş analar, nişanlı qızlar yol gözləməkdən təngə gəldilər. Vətən onları ovundurdu, bir ana kimi bağrına basdı, müəyyən dərəcədə dərdlərini unutdurdu. Lakin torpağı bunlarla müqayisə etmək olmaz. Atalar deyib ki, quş da vətənsiz olmasın. M.C.Bağırov məhz, bəzi şeylərdən keçsə də Vətənin bütövlüyündən keçməmişdir. Azərbaycanın bütöv qalması uğrunda M.C.Bağırovun xidmətləri bəlkə də onun bu və ya digər günahlarını bağışlamağa imkan verir. İran Azərbaycanında milli dövlətin qurucusu Seyid Cəfər Pişəvərinin müəmmalı ölümü də hələlik Stalinin və M.C.Bağırovun ünvanına yazılır.

Seyid Cəfər Pişəvəri bir yazısında qeyd edirdi ki, Azərbaycan xəritədə kiçik bir gölə bənzəyir. Əlini bu gölün üstünə qoyduqda heç nə görünmür. Lakin bu göl tüğyana gəlsə, bəşəriyyət onun qarşısında duruş gətirə bilməz. Seyid Cəfər Pişəvərinin böyük ehtirasla söylədiyi bu fikir onun ölümünü daha da reallaşdırdı. Yevlax rayonu ərazisində maşın qəzasına düşdü. Onun üçün də dərhal Tudə

partiyasına Qulam Yəhyanı başçı seçdilər. Qulam Yəhyanı dərhal Moskvaya apardılar. Az bir zaman kəsiyində Qulam Yəhya da müəmmalı şəkildə «zəhərlənib» öldü. Bütün bu hadisələrdən aydın olur ki, tanınmış şəxsiyyətlərin ölümü daha çox Moskvanın əli ilə icra olunurmuş.

Əlbəttə, böyük şəxsiyyətlərin səhvi də böyük olur. Onu Azərbaycanın saf sularında çimizdirmək, təmizə çıxarmaq Azərbaycan xalqının öz işidir. Bu yazdıqlarım isə mənim şəxsi qənaətlərimdir. Zaman hələlik bunları söyləməyə icazə verir. Sonrasını isə tarix göstərəcəkdir.

Ulu babalarımızın ən böyük əmanəti yadigar qoyub getdikləri ana dilimiz və Vətənimizdir. Biz bu sərvətləri iki gözümüz kimi qorumağa borcluyuq, bu, bizim vətəndaşlıq vəzifəmizdir.

Çiçəyim, gülüm Vətən,
Ağzımda dilim Vətən,
Bir çaqıl daşın üçün
Yolunda ölüm, Vətən.

Deyirlər, mənfur Mikoyan dünyadan köçərkən demişdir ki, ürəyimdə böyük nisgilim, dərin dərdim var. Türkiyə dövlətini yer üzündə salamat qoyub gedirəm, Azərbaycan haqqında arzularım gözümdə qaldı. Erməni xalqı üçün ömrüm boyu çalışdım, canfəşanlıq etdim. Amma köklü bir iş görə bilmədim. Sevindirmək istədim, sevindirə bilmədim. Stalinə hansı səmtdən, hansı tərəfdən yol tapıb getdimsə, M.C.Bağırov dağ kimi qabağımı kəsdi. Təkcə bu deyilənlərə görə Bağırovu öyrənməyə, onun haqqında xalqın yaşatdığı yaxşı nə varsa qələmə almağa dəyər.

Mən xalqdan M.C.Bağırov haqqında xatirələri, olub keçənləri, rəvayətə çevrilmiş hadisələri qələmə aldıqca görürəm ki, M.C.Bağırov haqqında əfsanələr yaranır, o,

getdikcə mifik qəhrəmana çevrilir. M.C.Bağırovun tarixi şəxsiyyət, həm də qətiyyətli şəxsiyyət olduğu şübhəsizdir. Bəzən adamlar onun da mənfi keyfiyyətlərini sadalayırlar. Bizcə, tam ideal şəxsiyyət ola bilməz. Onun həyatdakı mövqeyini təhlil edərkən xalqa nə dərəcədə xeyir verdiyini və zərər vurduğunu müqayisə etmək və üstünlüyün hansında olduğunu ön plana çəkmək lazımdır. M.C.Bağırovun öz Vətəninə və xalqına etdiklərini göz önünə gətirdikdə, əgər onun müəyyən səhvləri olmuşsa belə, hamısını kölgədə buraxır.

Sözsüz ki, bu kiçik kitabçada toplananlarla kifayətlənməyəcəyəm. Mir Cəfər Bağırov haqqında axtarışlarımı bundan sonra da böyük coşğunluqla davam etdirəcəyəm.

**Sədnik Paşa Pirsultanlı,**
filologiya elmləri doktoru, professor,
Azərbaycan Yazıçılar Birliyinin üzvü,
Respublikanın Əməkdar Mədəniyyət işçisi.

## Kişi gülləsi ilə

Əmrah 1943-cü ildə cəbhədən yaralı qayıtdıqdan sonra onu Goranboy rayonunun Dəliməmmədli qəsəbəsinə sovet sədri seçirlər. Əmrahın bir xasiyyəti varmış. Hər günorta fasiləsində bir evdə xoruz qızartdırıb yeyərmiş. Mir Cəfər Bağırova məktub yazırlar ki, Əmrah əsgər ailələrində toyuq-cücə qoymadı, hamısını basıb yedi.

Bağırov öz maşını ilə (rayon işçilərindən bir neçəsi də yanında) Gorana tərəf gəlirmiş. Qəflətən Əmrah böyürdən çıxır. Mir Cəfər Bağırov maşını saxlatdırır. Əmrahdan soruşur:

- Deyirlər, qızıl əsgər ailələrinin toyuq-cücəsini yeyirsən. Bu doğrudurmu?

Hər şeyə zarafat kimi yanaşan Əmrah deyir:

- Əlbəttə, yeyirəm, ölməyəcəm ki…

Mir Cəfər təhlükəsizlik idarəsinin nümayəndəsinə və milis rəisinə işarə edir ki, özünüz bununla məşğul olarsınız. Əmrah başa düşür ki, bu Mir Cəfər Bağırovdur. Maşının qabağına uzanır və qışqıra-qışqıra deyir:

- Yoldaş Bağırov, məni onlara tapşırma, çək-çevirə salacaqlar. Tapançanı çıxart məni vur, qoy desinlər, Əmrah, kişi gülləsi ilə öldü.

Bu söz Bağırovun xoşuna gəlir və deyir:

- Daha onunla işiniz olmasın, qoy gedib toyuq-cücəsini yesin.

## Sənə də ibrət olsun

Müharibənin qızğın vaxtında Mir Cəfər Bağırov 416-cı Taqanroq divizyası ilə görüşə gedibmiş. O, əsgərlərə müraciət edir:

- Kimin nə sözü var?

Gənc bir əsgər əlindəki məktubu ona uzadır. Mir Cəfər deyir:

- Məktubda nə yazılıb?

- Sizdən utanıram, yoldaş Bağırov.

- Yenə soruşuram, orada nə yazılıb?

Oğlan utana-utana Mir Cəfər Bağırova deyir:

- Yevlağın kəndindənəm. Üzr istəyirəm, mən cəbhəyə gəlməmişdən altı ay qabaq toyumuz olmuşdu. Mən əsgər gələndən sonra kəndimizə gələn milis rəisi nişanlımı görüb, ona gözü düşüb. Həmin gündən kolxoz sədrini və kənd sovetinin sədrini gözümçıxdıya salıb ki, o gəlini yola gətirib mənə düzəltməsəniz, ikinizi də ya müharibəyə, ya da həbsxanaya göndərəcəyəm. Onlar da gecə-gündüz mənim nişanlıma yalvarırlar ki, bizi qana-qadaya salma, onsuz da ərin müharibədən qayıdası deyil, bu milis rəisi gözəl-göyçək oğlandı, gəl, səni ona ərə verək. Nişanlım da göz yaşı ilə yazıb bildirir ki, özümü öldürməkdən başqa çarəm qalmayıb.

Mir Cəfər Bağırov oğlanı təyyarə ilə vətənə gətirir, milis rəisini, sədrləri və gəlini çağırır, hər şeyi dəqiqləşdirdikdən sonra milis rəisini kəndin ortasında camaatın gözü qarşısında güllələyir, kolxoz sədrini və kənd sovetini döyüşün ön xəttinə göndərir. Gənc əsgərə deyir:

- Bu qeyrətli gəlinin məktubuna görə səni gətirdim. Səni öz kəndinə kolxoz sədri qoyuram. Bayaq gördüyün hadisə sənə ibrət olsun. Hər bir ailəyə namusla, qeyrətlə yanaş, hamıya, bax, o qeyrətli qadının kimi münasibət göstər.

# Üç uşaq və ana

Mir Cəfər Bağırov xidməti maşını ilə Ucara tərəf gedirmiş. Görür ki, yolun qırağında bir qadının qucağında körpə bir uşaq əmir, ikisi isə yanında torpaq yeyir. Qadın gəlib keçənlərdən sədəqə, pay istəyir. M.C.Bağırov maşını saxlayır, bu acınacaqlı mənzərəni seyr edir və qadından soruşur:

- Nə üçün dilənirsən?

Qadın deyir:

- Qardaş, sən mənim dərdimə əlac edə bilməzsən. Bağırov nahaqdan ərimi ilim-ilim itirib. Dilənib pul yığacam. Onun görüşünə gedəcəm. Allahı bilsin, özü bilsin.

Bağırov deyir:

- Bacı, dediklərin düzdürsə, ərinin günahı yoxdursa, sabah evində olacaq.

Qadın deyir:

- Qardaş, bu sizin işiniz deyil. Bağırovsuz bu iş düzəlməz.

Maşın yola düşür. Bir gündən sonra qadının əri azadlığa buraxılır, evinə qayıdır. Ərini görən qadın sevincindən dili tutar-tutmaz deyir:

- Dilənib xeyli pul yığmışdım. Bağırovun əl-ayağına düşməyə gedəcəkdim.

Kişi cavab verir:

- Arvad, məni elə sən azad etdirmisən. Sənin dünən söhbət etdiyin kişi Bağırovun özü imiş. O, mənim işimi yoxlatdırıb. Nahaqdan həbs olunduğumu bilib, bu səbəbdən də məni azad edib. Məni nahaqdan tutduranı isə həbsxanaya saldırıb.

## Mayıl körpüsü

Mir Cəfər Bağırov hansı rayona getsə, xəbərsiz gedərdi. Bir gün o, Tovuza gəlir. Qərara alır ki, dağ kəndlərinə çıxsın.

Qəflətən göyün üzünü bulud alır, şimşək çaxır qaynayır, gur yağış yağır, Yanıqlı kəndinin çayı elə daşır ki, körpünü də özü ilə aparır. Bu mənzərəni görən Yanıqlı kənd sovetinin sədri Mayıl atı qamçılayıb çaya salır. At üzə-üzə zorla Mayılı selin ağzından alır. M.C.Bağırov qışqırır:

- Kişi, sən nə edirsən?

Mayıl Bağırovun əlindən tutub deyir:

- Qurban olum, Sizə bir şey olmayıb ki? Bizi kimisinin yüzü Sizə qurban olsun.

Bağırov soruşur:

- Kişi, adın nədir? Nə işə baxırsan?

- Yoldaş Bağırov, adım Mayıldır. Yanıqlı kənd Sovetinin sədriyəm.

Bağırov bütün rayonu Yanıqlı dərəsinə toplayır. Körpünü bərpa etdirir və deyir:

- Bu körpü Mayıl körpüsüdür, bu adla da yaşa-yacaqdır.

Bağırov da, Mayıl da dünyalarını dəyişiblər. Lakin Yanıqlı körpüsü bu gün də Mayıl körpüsü adlanır.

## Ağ at Mir Cəfəri heyrətə gətirir

Zal oğlu Məhəmməd Tovuzun Qaraxanlı kəndində sədr imiş. Pambıq yığımı vaxtı olur. Bu kolxoz pambıq yığımında çox irəlidə gedirmiş. Mir Cəfər Bağırov Dördgöz raykomla (yaddaşlarda belə qalıb) «M-1» markalı maşınında pambıq tarlasına gedir. Onlar tarladakı Qovaq ağacının altına gələndə bu xəbər Zal oğlu Məhəmmədə

çatır. O, qucağında iki yaşlı uşaq Ağ atı çapa-çapa gəlir, qonaqlara çathaçatda tez sıçrayıb atdan düşür. Atın cilovunu iki yaşlı uşağın ixtiyarına verir. Ağ at uşağın başı üstə qabaq ayaqlarını qaldırıb oynayır. Bu səhnə Mir Cəfəri çox həyəcanlandırır və o, ətrafdakı adamlara deyir:

- Qoymayın, at uşağı ayaqlaya bilər.

Tanıyanlar deyirlər ki, yoldaş Bağırov, Ağ at Zal oğlundan təlim alıb, o at uşağı da, Zal oğlunu da yaxşı tanıyır. Ağ at bu hərəkətləri ilə Sizi bir qonaq kimi salamlayır.

Bir tərəfdən pambıq yığımının bu kəndlərdə yaxşı getməsi, digər tərəfdən atın qeyri-adi hərəkəti Mir Cəfəri heyrətləndirir. O, üzünü Zal oğlu Məhəmmədə tutub soruşur:

- Ayə, de görüm, bu uşağı özünlə niyə gəzdirirsən?

Zal oğlu utana-utana:

- Bağışlayın, uzun illər övladım olmayıb, ona görə. Neçə ildən sonra bu oğlan uşağı dünyaya gəlib. Üzr istəyirəm, qadınım hamıdan əvvəl pambıq yığımına çıxmasa, başqaları da çıxmaz. O, işə getdiyindən məcbur olub uşağı özümlə gəzdirirəm.

Bağırov deyir:

- Bu gündən sənin qadının pambıqdan azaddır. Sən işinlə daha ciddi məşğul ol!

Bağırov doğrudan da, bunu raykoma (soyadı Məmmədov imiş) tapşırır. Getmək istəyəndə Zal oğlu Məhəmməd sıxıla-sıxıla deyir:

- Bəlkə mənim evimdə bir tikə çörək kəsəsiniz.

Bağırov raykom katibindən soruşur:

- Bunun çörəyini kəsmək olarmı?

Dördgöz raykom deyir:

- Olar, yoldaş Bağırov, olar.

Bağırov yeməyə getməsə də deyir:

- Zal oğlu, səni qabaqda ya xoşbəxtlik, ya da bədbəxtlik gözləyir. Bu kolxoza müfəttiş göndərəcəyəm, sınaqdan çıxa bilsən, gələcəyin qəhrəmanısan, əksinə olsa, səni həbs etdirəcəyəm.

Bağırov ayrılarkən tapşırır:

- İlxıdan Ağ atın cinsindən otuz baş at seç, Bakıya cıdır meydanına göndər.

İki gündən sonra yoxlama komissiyası kolxoza gəlir. Düz on gün təsərrüfatı dib-dəhnədən yoxlayırlar. Hər şey güzgü kimi təmiz və saf çıxır.

Komissiya qayıdandan bir neçə gün sonra radioda elan olunur:

- 1947-1948-ci ilin təsərrüfat göstəricilərinə görə Zal oğlu Məhəmməd Sosialist Əməyi Qəhrəmanı adına layiq görülür.

Beləcə hər şey Ağ atdan başlanır.

## Təbrik teleqramı

Mir Cəfər Bağırov Tovuz rayonundakı Qaraxanlı kolxozunun sədri Zal oğlu Məhəmmədin xətrini çox istəyirdi. Çünki bu işgüzar və qeyrətli insan Böyük Vətən müharibəsi dövründə Qaraxanlı, Xatınlı, Qədirli kənd camaatını aclıq və səfalətdən qorumuş, qızıl əsgər ailələrinin namus və qeyrətini göz bəbəyi kimi qorumuşdu. Qadınların, yaşlı kişilərin, iş görməyə qabiliyyəti çatan uşaqların köməyi ilə pambıq becərmiş, əkinçiliyi inkişaf etdirmiş, dövlət planlarını nəinki rayonda, hətta respublikada layiqincə yerinə yetirmişdi. O biri tərəfdən də atçılığı inkişaf etdirmişdi. «Qrican», «Kəpəz», «Qoşqar», «Alapaça», «Sultan», «İqrun», «Bayan» adlı atların respublika və dünya rekordları qazanması Zal oğlu Məhəmmədin hörmətini Bağırovun yanında qat-qat artırmışdı. «Qrican»

ərəb və ingilis atlarının, «Alapaça» Qazax cinsi ilə ərəb və ingilis atlarının birləşməsindən törəmişdi. «Qrican» Gürcüstan və Stavrapolda keçirilən at yarışlarında birinci yerə çıxmışdı. «Alapaça» atını xaricə 78 min manata satmışdı. «Qrican» dünya yarışlarında rekord qazanmışdı. Sonralar «Qrican»ı ilan vurub öldürdü. Onu adam kimi kəfənləyib dəfn etdilər. «Qoşqar», «Bayan», «Sultan» kimi atlar bəsləyən ilxının başçısı Təyyar Rüstəmova 4 min manat mükafat verdilər.

Atları sevgi ilə bəsləyən, yetişdirən, onlara təlim keçən Süleyman Ayvazoğlu Kərimov da Zal oğlu Məhəmməd kimi Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü.

Dünya rekordu qazanan atlar yetişdirdiyi üçün Moskvadan-Büdyonnıdan təbrik məktubu gəldi. Bütün bu nailiyyətlərdən sevinən, fəxr edən M.C.Bağırov Tovuza, Qaraxanlı kəndinə, Zal oğlu Məhəmmədə bacarıqlı təsərrüfat başçısı kimi təbrik teleqramı göndərdi.

## Ağ atın dəfni

M.C.Bağırov həbs edildikdən sonra Tovuz rayonundakı Qaraxanlı kolxozunun sədri Zal oğlu Məhəmmədi işdən çıxartdılar.

Zal oğlu Məhəmməd o qədər də narahatlıq keçirmirdi və deyirdi:

- Eybi yoxdur, neçə illərdir ki, istirahət üzünə həsrətəm.

Lakin bu, hamıdan çox Ağ atın kədərinə, qəminə səbəb oldu. Ağ at kolxoz idarəsində heç kəsə yan vermədi. Hər dəfə qaçıb sahibinin yanına, Zal oğlunun evinin doqqazına gəldi. Ot verdilər yemədi, su verdilər içmədi. Üzü gülməyən Ağ at bir neçə gündən sonra xiffətdən öldü.

Zal oğlu Məhəmməd dedi:

- M.C.Bağırov Ağ atın yalmanına əl çəkib, oxşayıb, sığallayıb. Ona görə də Ağ ata münasib yer seçin, onu dəfn edin, qurd-quş onun cəmdəyinə toxunmasın. Ağ at mənim və Təyyar Rüstəmovun qəhrəman olmasına kömək etdi.

## Zal oğlu Məhəmmədin vəsiyyəti

- Oğlanlarım, sizə son vəsiyyətim budur, unutmayın ki, M.C.Bağırov haqqında bu gün nə deyirlərsə yalandı, böhtandı, hədərdi. O, necə düşməndi ki, Azərbaycan xalqını müharibə vaxtı sürgün olunmağa qoymadı. O, necə düşməndi ki, beş il, müharibə başlanandan qurtarana qədər nə özü yatdı, nə də bizi yatmağa qoydu.

Əsgər ailələrini öz bacımız, anamız, qızımız kimi qoruduq, uşaqları zəhmətə alışdıra-alışdıra böyütdük. Böyüklər zəmiləri biçdi, körpələr yerə düşən sünbülləri yığdı. Mən bir qadını kənddən kənara çıxmağa, hətta Qaraxanlıdan rayon mərkəzinə – Tovuza da getməyə qoymamışam ki, adına söz çıxar, ailəsi yazıqdır. Biz bütün bunları M.C.Bağırovun tapşırığı ilə, həm də ondan qorxduğumuz üçün etmişik. Bağırov təpinəndə də qorxmuşuq, üzümüzə güləndə də.

Bağırov ciddi rəhbər olub. O, var-dövlət hərisi olmayıb, şəxsi mülkü yoxdur. Bağırov ömrü boyu xalq üçün çalışıb. Bir gün gələcək, Bağırovun təmiz adı özünə qayıdacaq! Siz hər necə etsəniz də, Bağırovla mənim dostluğumu inkar edə bilməzsiniz. Siz bu dostluqla öyünün, bu dostluq xalqa xidmətdən başqa bir şey deyil.

## Qartopu və rektorun taleyi

Bağırov Gəncəyə – Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu mükafatlandırmağa gedir. İnstitutun Kimya korpusunun qabağına çatanda görür ki, tələbələr yol ilə gəlib keçən qızları qartopuna tuturlar. O, maşını geri döndərtdirib Bakıya qayıdır. Ağayevi institutun rektoru vəzifəsindən azad edir və ona bir teleqram göndərir. Teleqramda deyilir: «Ağayev, institutun çölündə tərbiyə olmasa, içərisində heç olmaz».

## Yol əhvalatı

M.C.Bağırov Gəncədəki Elmi-Tədqiqat Pambıqçılıq İnstitutuna gedirmiş. Dəmir yolunun altında Bağırovun maşınının arxa təkəri çalaya düşür. Bir həmlədə şəhər rəhbərliyini buraya toplayan Bağırov sürücüyə tapşırır ki, maşını söndür, qoy, bu cənablar çəkib çıxarsınlar. Şəhərin rəhbər işçiləri kəndir, zəncir bağlayıb maşını dartıb çıxarırlar. Bağırov qəti şəkildə hökm verir: «Mən bir saata Pambıqçılıq İnstitutuna dəyib qayıdıram. Yolu hazır görüm».

Bağırov qayıdana qədər yollar elə asfaltlanmışdı ki, ayna kimi parıldayırdı.

## Ağa dayının aqibəti

1960-cı illərdə Heydər Mirbabayev mətbəə işçisi kimi yanımda işləyirdi. H. Mirbabayev bir gün ona nə üçün Ağa dayı deyildiyinin səbəbini açdı. Bu maraqlı insanın əlləri qızıl idi. Lakin gündə bir dəfə içməsə, durmazdı. Mən «Yeni Daşkəsən» qəzetinin redaktoru işləyən zaman o, qəribə bir əhvalat danışdı:

- Mən vaxtilə Əliheydər Qarayevlə işləmişəm Bir gün hardasa Ə.Qarayevi tərifləldim. Mənə dedilər ki, Bağırov səni axtarır, deyəsən, o dünyalıq olacaqsan. Mən evə gəldim. Arvad-uşağımla vidalaşıb, dedim:

- Xalq düşməninin övladı olmaqdansa, yetim qalmaq yaxşıdır. Siz sağ, mən salamat.

Başımı götürüb Qubaya getdim. Öyrəndim ki, Bağırov saatsaz Şəmistanla dostdur. Onunla dostluq əlaqəsi yaratdım. Sonra bacısı Püstə ilə evləndim.

Bir gün Bağırov Qubaya gəlir, öyrənir ki, mən Qubadayam. Bundan xəbər tutan kimi içib işıq dirəyinə çıxdım. Gəlib bu mənzərini seyr edən Bağırov dedi:

- Mirbabayev, aşağı düş!

Yazıq-yazıq dilləndim.

- Yoldaş Bağırov, mən yaşamaq istəyirəm. Ona görə də Sizin doğulduğunuz torpağa pənah gətirmişəm.

Bağırova bildirirlər ki, o, gəlib burada saatsaz Şəmistanın bacısı ilə evlənib.

Bağırov rayon rəhbərliyinə dedi:

- Bir mətbəə işçisi kimi bunun əlləri qızıldır. Lakin ağzının senzurası yoxdur. Qoyun, gedib mətbəədə işləyib ailəsini dolandırsın. Lakin onu nəzarətdən çıxmağa qoymayın. Həmin gündən Ağa Mirbabayevin Bakı h əyatı sona çatır. Qalan ömrünü Qubada və başqa rayonlarda keçirir.

## Hünərinə görə Məliyi bağışlayır

Mormorda – Hacılar kəndində yurd-yuva salan qaçaq Cəfərqulunu 30-cu illərdə sovet qaçağı kimi öldürürlər. Onun qardaşı Məlik qorxusundan Tiflis şəhərinə qaçır, orada topçuluq məktəbini bitirir, oradan da Rusiyaya gedir. Müharibə başlanır, Məlik ordu sıralarında qəhrəmancasına

döyüşür və müharibədən sonra mayor rütbəsi ilə Bakıya dönür.

Bakıda Cıdır meydanında at üstündə hədəfə güllə atmaq yarışı keçirilirmiş. Məlik atı çapa-çapa onaçılanla hədəfə güllə atır, on gülləsinin onu da onluğa dəyir. O, yarışın qalibi olur. Məlik M.C.Bağırovun bundan xəbər tutacağından qorxaraq adamların arasında gizlənir.

Bu mənzərini seyr edən Bağırov çekstlərə deyir:

- Bu cür nişançı yalnız Qaçaq Cəfərqulunun qardaşı Məlik ola bilər, onu bu saat tapıb mənim yanıma gətirin.

Bir andaca Məliyi tutub Mir Cəfər Bağırovun yanına gətirirlər. M.C.Bağırov ona səmimi əl verir və deyir:

- Afərin, bu hünərinə görə səni bağışlayıram. Özün də bu gündən Azərbaycan Dövlət Universiteti hərbi kafedrasının rəisisən.

Məlik o gündən pillə-pillə yüksəlir, elmlər namizədi, elmlər doktoru olur, ömrünün sonuna qədər ADU-da vəzifə daşıyır. Məliyin tayfası Mormora Qaraxanlıdan getmişdi.

## Mir Bəşir Qasımovun bəxti gətirir

Mir Bəşir Qasımov inqilab illərində Bakıda kömür dükanında işləyirmiş. Bir gün çar xəfiyyələri Stalini təqib edirlər. O, birtəhər aradan çıxıb Mir Bəşirə pənah gətirir. Mir Bəşir onu kömür dükanında gizlədir və ələ vermir.

Aradan illər keçir. Bir gün Stalinin gözü cib dəftərində Mir Bəşirin adına sataşır və dərhal Bağırova zəng edib soruşur:

- Mənim dostum Mir Bəşir hansı vəzifədə çalışır?

Bağırov cavab verir ki, Mir Bəşir Bakıda neft rayonlarının birində Partiya Komitəsinin birinci katibidir.

Stalin amiranə tərzdə sözünə davam edir:

- Təcili, onu mənim yanıma göndər!

Mir Cəfər təcili Mir Bəşiri tapdırır və ona deyir:

- Sən bilirsənmi neçə aydır ki, Bakının neft rayonlarından birində raykom katibisən?!

Bağırov onu rayonun ərazisi ilə, istehsalat sahələri və bu rayonun göstəriciləri ilə yaxşı-yaxşı tanış edir, üst-başını səliqə-sahmana salıb Stalinin qəbuluna göndərir.

Az bir müddət raykom katibi işləyən Mir Bəşir Qasımov sonradan Azərbaycan Ali Sovetinin sədri olur.

## Qaçaq Məmmədqasım və Mir Cəfər Bağırov

Mir Cəfər Bağırov ÇK-nın sədri olanda xəbər tutur ki, Kürün o tayında, Eldar meşələrində məskən salmış Qaçaq Məmmədqasım yerli əhalini çapıb-talayır. Mir Cəfər Bağırov özü kiçik bir dəstə ilə onun arxasınca gedir. Kürün körpüsünün bu üzündən Məmmədqasıma xəbər göndərir ki, sənin görüşünə mən gəlmişəm. Atışmaq, dava etmək, qan tökmək lazım deyil. Kişi kimi qabaq-qabağa söhbət edək.

Mir Cəfər Bağırov başının dəstəsini, silahını bu üzdə qoyub əliyalın bərəni keçir. Hər ağacın başında Qaçaq Məmmədqasımın silahlı bir adamı varmış. Qaçaq Məmmədqasım Mir Cəfər Bağırovu səmimi qarşılayır. Düşərgədə üz-üzə otururlar. Məmmədqasım adamlarına tapşırır ki, Bağırov bizimlə çörək kəssə, onunla söhbət edəcəyik, yox özünü təkəbbürlü aparsa, davamız davadır.

Süfrə açılır, yeməklər ortaya gəlir. Bağırov «bismillah» deyib çörək kəsir. Hamıdan əvvəl ilk qisməti əlinə götürür. Bağırovun bütün hərəkətləri - silahsız, adamsız Kürü tək keçib gəlməsi, qaçaqlarla diz-dizə oturub

çörək kəsməsi, Qaçaq Məmmədqasımı heyrətə gətirir, onun qeyrət damarlarını oyandırır. Qəlbindən belə bir hiss keçir: «Mir Cəfər Bağırov məndən də qoçaq və qorxmazdır».

Mir Cəfər Bağırov deyir:

- Məmmədqasım, indi biz bir millətin övladı kimi, qardaş kimi açıq söhbət edə bilərik. Sən nə xalqın, nə də dövlətin düşməni deyilsən. Ziyan arada zəhmətkeş insanlara dəyir. Sən nə qədər ədalətli olsan da, özün və başının dəstəsi hər gün çörək yeməlidir, ət yeməlidir. Əkin əkmirsən, biçin biçmirsən. Deməli, yaşamaq üçün istər-istəməz kəndləri talamalısan. Xalqın ununu, dənini, malını, qoyununu örüşdən və ya qapısından çəkib gətirməlisən. Bu yoldan əl çək! Başının dəstəsini dağıt! Gəl, səni Gəncədə, Gəncəbasarda bir rayona milis şöbəsinə rəis qoyum.

- Yoldaş Bağırov, bütün bu qiymətli təkliflərinizə görə çox sağ olun. Məni hansı bir vəzifəyə qoyursunuz-qoyun, düşmənlərim məni rahat buraxmayacaq. Mənə başqa çıxış yolu deyin.

Mir Cəfər Bağırov qəti və səmimi bildirir ki, onda sizin bircə yolunuz qalır. Mən şərait yaradım, dəstəndən kimləri seçirsən seç, özünə və millətinə yaxın olan dövlətlərdən birinə keç.

Onlar görüşüb ayrılırlar. Bağırov bərəni keçib geri qayıdır, Qaçaq Məmmədqasım isə kiçik bir dəstə ilə Türkiyəyə keçir.

## Stalinlə Mir Cəfər Bağırovun əlaqəsi necə yaranır

Mir Cəfər Bağırov ÇK-nin sədri işləyirdi. İranın sərhədə yaxın olan bir kəndinin adamları Qarabağın kəndlərinə gecələr hücum edib mal, qoyun, at, bir sözlə, əllərinə nə keçsə, aparırdılar. Bundan xəbər tutan Mir Cəfər

Bağırov kiçik bir dəstə ilə İrana keçdi. Həmin kəndin qaçaq-quldurunu məhv elədi, kəndi yandırdı. Malını-qoyununu Qarabağa keçirtdi.

Təxminən 1929-30-cu illər olardı. İran dövləti nota verdi. Sərhədlərinin pozulduğunu bildirdi. Bundan xəbər tutan Stalin Mir Cəfər Bağırovu yanına çağırtdırdı. Xeyli söhbət etdikdən sonra Azərbaycana qayıtmağa qoymadı, onu Moskvada Qırmızı Professorlar məktəbinə göndərdi.

Aradan iki il keçəndən sonra Stalinə xəbər verdilər ki, basmaçılar Orta Asiyanı dağıdırlar. Stalin Mir Cəfər Bağırovu yanına çağırtdırdı və dedi:

- Orta Asiyada basmaçılar baş qaldırıb, talançılıqla məşğuldurlar. Sən onların öhdəsindən gələ bilərsənmi?

- Yoldaş Stalin, icazə verin, Azərbaycanda mənim köməkçilərim var, onları da çağırıb işə qoşum.

Stalin razılaşdı.

Qısa bir müddətdə Orta Asiyada Bağırov işi elə qurdu ki, gecələr basmaçıların başçılarını ikibir, üçbir, gizli şəkildə həbs etdirdi. Amansızlıq göstərənləri öldürtdü. Basmaçılar ölkədə vəziyyətin çətinləşdiyini görüb Əfqanıstana və başqa ölkələrə qaçdılar.

Mir Cəfər Bağırovu Stalin geri çağırtdırdı. Silahdaşlarının yanında onun əlini sıxdı, təbrik elədi və dedi:

- Nəhayət, Azərbaycana rəhbər tapıldı.

Azərbaycanın köçürülməsi məsələsi Stalinin imzası ilə yazıldı: «Azərbaycan köçürülməlidir!».

Mir Cəfər Bağırov Azərbaycanın rəhbərlərini otağına yığdı və dedi:

- Məsələ çox ciddidir. Qarşıda ölüm-dirim məsələsi durur. Hamımız ölərik, amma Azərbaycanın bir kəndi yerindən tərpənməz. Mikoyan xalqımız və torpağımız üçün yeni bir tor qurmuşdur. Hər dəfə biz o toru kəsib doğraya

bilmişik. Bizim gücümüz ondakından indi artıqdır. Mən Moskvaya yola düşürəm, heç kim mən gəlincə mənim kabinetimdən tərpənməsin. Qulağınız səsdə olsun! Eşitsəniz ki, mən Kremldə silah işlətmişəm, onda açıq bəyanatla Türkiyə dövlətini Azərbaycana köməyə çağırın. Bu iş sülhlə başa çatmasa, Stalini də, özümü də güllələyəcəyəm.

Bağırovun üstündə iki tapançası var imiş. Birini Stalinin otağına daxil olarkən təhvil verir. Bağırov acıqlı-acıqlı içəri daxil olarkən, Beriya və Mikoyan məsələni başa düşüb otaqdan çıxırlar.

Mir Cəfər Bağırov məktubu Stalinin qabağına qoyub soruşur:

- Bu, nə məsələdir? Azərbaycanın Vətən qarşısındakı xidmətlərinin cavabı beləmı olur?

Stalin bildirdi ki, mənim bundan xəbərim yoxdur. Kağızların arasında kimsə gətirib, qol çəkdirib. Stalin təzə məktub yazdırır və orada göstərir ki, Azərbaycanın köçürülməsi haqqında filan tarixli məktub etibarsız hesab edilsin. Azərbaycan xalqı əbədi yaşadığı torpağında qalsın.

Kağızı möhürləyib Mir Cəfər Bağırova verdi və əlini möhkəm sıxdı.

Mir Cəfər Bağırov bu şad xəbəri Azərbaycana çatdırdı.

## Haqlı şikayət və yanıqlı səs

Bir qoca danışdı ki, mən Mir Cəfər Bağırovun yanında adyudant işləyirdim. Bir gün işə gedərkən küçədə mənə bir gəlin yaxınlaşdı və dedi ki, imkanın olsa, bu məktubu yoldaş Bağırova çatdır. Mənim qardaşım günahsız sürgünə göndərilir, bəlkə heç bundan Bağırovun xəbəri yoxdur. Xahiş edirəm, məktubu çatdırın, mümkünsə, araşdırıb işə yenidən baxsınlar, vallah, günahsız tutulub. Mən zərfi alıb işə yollandım. Yoldaş Bağırov işə gəldi, mən

içəri daxil olub gəlinin söylədiklərini danışdım və zərfi yoldaş Bağırova verdim. Bir qədərdən sonra Bağırov göstəriş verdi ki, təcili olaraq biz «Yalama» dəmir yolu stansiyasına gedirik. Gəlinin verdiyi zərfi oxudum, həqiqətən də, o adam günahsız tutulub. Biz «Yalama» dəmir yolu stansiyasına çatanda qatar dayanmışdı. Qatar yük qatarı idi, hər iki tərəfindən qapıları açılmışdı. Qatarın hər tərəfində hərbçilər və itlər dayanmışdı. İnsanlar son dəfə vida edirdilər. Biz maşından düşdük, yoldaş Bağırov milis rəisini çağırıb göstəriş verdi ki, həmin adamın işini tapsın. Sonra özü qabaqda, biz də arxasınca vaqonların yanından o başa gedib qayıtdıq. Bu zaman vaqonun birində kimsə görüşə çıxmadan vaqonun bir küncündə oturub çox yanıqlı səslə oxuyurdu. Bu adamın səsi bizi ağlatdı. Hətta Bağırovun da gözləri doldu, geri qayıdıb milis rəisindən bütün işləri istədi və bir neçə işi vərəqlədi. Həmin zərfi verən gəlinin qardaşının günahı yox idi. Mir Cəfər Bağırov həmin oğlanın, eləcə də, başqa bir neçə nəfərin günahsız olduğunu görüb əlini piston cibinə atdı. Biz bilirdik ki, Bağırovun piston cibində tapançası var. Milis rəisi, milis mayoru erməni idi. O, tapançanı çıxarıb milisi güllə ilə vurdu və qatarın geriyə, Bakıya qaytarılmasına göstəriş verdi. Həqiqətən də, işə tam baxılandan sonra 8 (səkkiz) vaqon adamın əksəriyyəti azad olundu və müəyyən bir hissəsi yerli həbsxanalara göndərildi. Az bir miqdarda adam müəyyən nöqsanlarına görə sürgünə göndərildi.

8 vaqondan ikisi Sibirə gedəsi oldu.

## Mir Cəfər Bağırov hədiyyə saatını qaytarır

Mir Cəfər Bağırovun yaxşı tanıdığı bir nəfəri həbsxanadan azadlığa buraxırlar. Bağırov ona bir məktub və bir dənə də saat verir. Tapşırır ki, bunları Sovet İttifaqı Qəhrəmanı Xıdır Mustafayevə çatdırarsan.

Həmin adam Bağırovdan soruşur:

- Nə yaxşı sizi güllələmədilər?

- Mən güllə verilmiş adamların çoxunu güllələnməyə qoymadım. Həmin adamlar dar ayaqda mənə kömək etdilər.

Xıdır Mustafayev məktubu və saatı alıb deyir:

- Müharibədən sonra Bağırovla görüşə gedəndə ona bəzi adamlar hədiyyə gətirmişdi. O, heç birini qəbul etmədi. Təkcə arxası yazılmış bu saatı məndən qəbul etdi və qoluna taxdı.

## Mir Cəfər Bağırovun gözündən yaş axır

Yazıçı Mehdi Hüseyn Kislovodskda dincəlirmiş. Qəflətən gəlib ona deyirlər ki, Mir Cəfər Bağırov Sizi çağırır. Mehdi Hüseyn həyəcanlı şəkildə özünü Bağırova yetirir. Məlum olur ki, qorxulu bir şey yoxdur. Mir Cəfər Bağırov  ilk tamaşasına baxmaq üçün «Fətəli Xan» filmini bura gətirtmişdi. Məlumdur ki, filimin senarisini M.Hüseyn yazmışdı.

Mehdi Hüseynin dediyinə görə, Mir Cəfər Bağırov filmə çox diqqətlə tamaşa edir, Fətəli Xanın ailəsinin əsir aparılması səhnəsində qeyri-ixtiyari gözündən yaş axır və deyir:

- Millətin səadəti uğrunda mübarizə aparmaq da çətindir.

## Kaş o yumruq həmişə başımızın üstündə olaydı

Mir Cəfər Bağırov xalq şairimiz Səməd Vurğunu yanına çağırıb deyir:

- Azərbaycandan yazdığın bəsdir. İndi də keç, İrandan yaz.

Səməd Vurğun deyir:

- Yoldaş Bağırov, mən fars dilini bilmirəm.

- Onda Türkiyədən yaz.

Səməd Vurğun deyir:

- Mənim yazdıqlarım zövqünüzü oxşamırsa, yazmaya da bilərəm.

Bağırov qalın bir qovluğu göstərir:

- Bax, bunlar sənin haqqında yazılanlardır. Hələlik gedə bilərsən.

Səməd Vurğun qorxusundan Moskvaya Fadeyevin yanına gedir.

Bir gün Fadeyev onu Azərbaycan ziyalılarının Moskvada təşkil edilmiş yığıncağına aparır. Burada Səməd Vurğun Yaqubovla görüşür. Yaqubov deyir:

- Bağırovu vəzifədən çıxartdılar. Onun yumruğunu xalqın başı üstündən götürdülər.

Səməd Vurğun deyir:

- Bunun üçün sevinmək yox, ağlamaq lazımdır.

Səməd Vurğun yumruğunu düyünləyib öz alnına vurur və belə deyir:

– Təkcə Bağırov sağ olsun! Onun yumruğu Azərbaycanın üstündən əskik olmasın. Yurdumuzu,

əcdadlarımızın yadigarını qoruyan Bağırovun yumruğudur. 416-cı Taqanroq divizyasını təşkil edən və insanlarımızın yad torpaqlara köçürülməsinə imkan verməyən Bağırov olmadımı?

## Eynək məsələsi

Sibirin həbsxana düşərgəsində Mir Cəfər Bağırov bir nəfər azərbaycanlı dustağa yaxınlaşıb deyir:

- Sabah səni azad edəcəklər. Mənim bu eynəyimi filan ünvanda bir qadına verərsən.

Həmin adam eynəyi deyilən ünvana çatdırır. Qadın onun üçün bir süfrə açır və deyir:

- Deməli, mənim qardaşımı güllələməyiblər. O, sağdır.

## Dövran bizimkidir

Mir Cəfər Bağırov kiçik oğlu ilə Göygöldəki evində dincəlirmiş. Pəncərəni açıb Göy gölü seyr edən oğlu atasından soruşur:

- Ata, Bakıdakı gözəl binalar, bağlar, Göy göldəki bu ev – nə varsa, hamısı bizimkidir?

- Yox oğlum, yox. Yalnız dövran bizimkidir.

## Bir qubalı kifayətdir

Təşkilat şöbəsinin müdiri bir nəfərin şəxsi işini M.C.Bağırova gətirir və deyir:

- Bu adam qubalıdır. Onu Mərkəzi Komitəyə məsul işə gətirmək istəyirik.

Mir Cəfər Bağırov anketi oxumadan deyir:

- Mərkəzi Komitədə bir nəfər qubalı var, kifayətdir.

## Haradan gəlmisən?

Məşhur akademik Məmmədcəfər Cəfərov institutu qurtardıqdan sonra Qubada müəllim işləmişdi. Sonra onu Bakı kitabxanaçılıq texnikumuna direktor gətirirlər. Məktəbin tədris hissə müdiri onun yerinə keçmək üçün hər zaman material toplayır və bir gün fürsət tapıb Mir Cəfər Bağırovun yanına şikayətə gedir. Bağırov deyir ki, dur get. Sabah sizi direktorla bərabər qəbul edəcəyəm.

Məmmədcəfər Cəfərovu və tədris hissə müdirini Bağırov yanına çağırtdırır. Bağırov tədris hissə müdirinə deyir:

- Dünən dediklərini təkrar de.

Tədris hissə müdiri Məmmədcəfər Cəfərovu o ki var tənqid edir.

Yekunda Mir Cəfər Bağırov Məmmədcəfər Cəfərovdan soruşur:

- Siz məktəb direktorluğuna haradan gəlmisiniz?

- Qubadan gəlmişəm, yoldaş Bağırov.

Bağırov deyir:

- Durun, gedin. Dil tapın. Bir də sizdən belə sözlər eşitməyim.

## Mən xalqa düşmən olmamışam

Məhkəmədə Mir Cəfər Bağırov SSRİ Prokuroru Rudenkoya deyir:

- Məni dörd parça edib Vətənin dörd güşəsinə atın. Ancaq mənə xalq düşməni deməyin. Mən heç bir zaman xalqın düşməni olmamışam. Əksinə, mən Azərbaycan xalqını və Azərbaycan torpağını qorumuşam. Əcdadlarımızın yurdunu gələcəyimiz olan gənclərimizə

yadigar saxlamışam. Mənə nə deyirsiniz deyin, xalq düşməni deməyin. Bu söz mənə yaraşmaz.

## Uşağın torpaqbasdı istəməsi

Mir Cəfər Bağırov İmişli rayonunun bir kəndinə gəlir. Yeddinci sinifdə oxuyan bir uşaq Mir Cəfər Bağırovun maşınının qabağını kəsir və deyir:

- Torpaqbasdı vermәlisən.

Bu söz Bağırovun xoşuna gəlir. Məktəblinin müəllimәsini yanına çağırır və deyir:

- Bu dörd yüz manatı götürün, uşaq üçün geyim və məktəb ləvazimatı alın. Bu uşaqla xüsusi məşğul olun. Onun gələcəyi parlaqdır.

## Altı çamadanın hamısı kitabla dolu idi

Qızıl dükanında işləyən bir qadın belə danışırmış:

- Məni bir gün çağırıb bildirdilər ki, Bağırovun evində axtarış aparılacaq. Onun evindən tapılan qızıl əşyalar sizə veriləcək ki, onları satıb dövlət xəzinəsinə verəsiniz.

Evdə yalnız Bağırovun arvadı var idi. Ona evdə olan şifoner, bufet, çarpayıları göstərdilər. Qadın bildirdi ki, evdə gözünüz nə görürsə dövlətinkidir.

Ona sual verdilər:

- Bəs sizin şəxsi əmlakınız yoxdur?

Qadın bildirdi ki, altı çamadanda nə varsa, bizə məxsusdur.

Çamadanları bir-bir açdılar. İçindəkilərin hamısı qiymətli kitablar idi.

## Bağırovun sözü söz idi

Gəncəli tarixçi Yusif müəllim belə nağıl edir ki, atam yaralı zabit kimi müharibədən qayıtmışdı. Əmək qabiliyyətini itirmişdi. Evin böyük oğlu isə mən idim. Altıncı sinifdə oxuyurdum. Ailəmizin durumu haqqında M.C.Bağırova məktub yazdım. İş saatının sonları olardı. Şəhər rabitə şöbəsinin rəisi Həsən Mirzəyev bir neçə adamla bizə gəldi. Məni maşınla poçt idarəsinə apardılar. Həsən Mirzəyev işçilərə müraciətlə dedi:

- Bağırov yoldaşın göstərişidir. Biz bu gənci işlə təmin etməliyik.

Məni öz küçəmizə poçtalyon təyin etdilər. Qabaqcadan da 310 manat pul verdilər.

Ən maraqlısı bu idi ki, kiçik poçtalyon paltarı 46 ölçüdə idi. Paltar böyük idi. Ayağını, qolunu qatlamaq lazım idi. Lakin poçtalyon paltarını geymək mənim üçün maraqlı idi.

Mən bu sözlərlə onu demək istəyirəm ki, Bağırov çox həssas, diqqətli və qayğıkeş insan idi. Bağırovun sözü bir idi, iki deyildi.

## Mir Cəfər Bağırovun göz yaşları

Mir Cəfər Bağırovun oğlu Cahangir təyyarəçi idi. O, Böyük Vətən müharibəsi illərində üç alman təyyarəçisi ilə havada tək döyüşməli olur. İki düşmən təyyarəsini vurub sıradan çıxarır. Lakin üçüncü alman təyyarəsi tarana keçərək onun təyyarəsini zədələyir. Özü də ağır yaralanır. O, son gücünü toplayaraq təyyarəsi ilə Sovet torpağına enir. Deyilənə görə, Cahangir Saratov torpağında can verir, cənazəsini təyyarə ilə Azərbaycana gətirirlər.

Mir Cəfər Bağırov yanındakılara deyir:

- Azərbaycan oğulları harada vurulursa, o torpaqda da dəfn olunur. Bəs nə üçün mənim oğlumu seçib gətirmisiniz? Bu saat onu vurulduğu torpağa qaytarın!

Teymur Quliyev Mir Cəfər Bağırova müraciətlə deyir:

- Təyyarə Saratovdan belə dolanaraq nə qədər benzin işlətmişdir. Geri qayıtdıqda da bir o qədər benzin işlədəcəkdir. Bununla döyüşən tanklardan birini benzinlə təmin etmək olar.

Bağırovun oğlu Cahangiri bir neçə adamla aparıb Yasamal qəbrstanlığında dəfn edirlər.

Mir Cəfər Bağırov Azərbaycan Mərkəzi Komitəsinin I katibliyindən azad ediləndən sonra ona Bakıda məhkəmə qurulur. Məhkəməyə SSRİ Baş Prokuroru Rudenko rəhbərlik edirdi. Mir Cəfər Bağırov icazə alıb deyir:

- Mənim sizdən iki xahişim var. Birincisi, mənə xalq düşməni deməyin. Mən heç bir zaman Azərbaycan xalqına düşmən olmamışam. İkincisi, ən böyük xahişim odur ki, icazə verin, son anda oğlum Cahangirin məzarını ziyarət edim.

Mir Cəfər Bağırov qəbri ziyarət edir, yanında əyləşir və deyir:

- Əziz oğlum, Cahangir, son arzum o idi ki, öləndə məni sənin yanında dəfn etsinlər. Lakin tale belə gətirdi.

Ömründə ağladığını heç bir kəs görməyən Mir Cəfər Bağırov oğlunun məzarını qucaqlayıb ağlayanda, gözündən qeyri-ixtiyari yaş axır. Dəsmalını çıxararaq gözünü silir.

## Əhsən, Bəsti

Mir Cəfər Bağırov Goranboy rayonuna gəlir. Pambıq yığımı vaxtı imiş. Birinci Baxçakürdə, Bəsti Bağırovanın tarlasına dönür. Bəsti Bağırova Mir Cəfər Bağırovu çaya dəvət edir. Çay süfrəsi arxasında Bağırovla bərabər bir neçə

kişi, o cümlədən Bəstinin həyat yoldaşı Qasım kişi də əyləşmişdi. Süfrəyə çayı Bəsti gətirdi. Mir Cəfər Bağırov diqqət etdi ki, görsün Bəsti çayı birinci kimin qabağına qoyacaqdır? Bəsti Bağırova çayı birinci əri Qasım kişinin, ikincini isə Mir Cəfər Bağırovun qabağına qoyur. Bağırov deyir:

- Əhsən, Bəsti!

## Evinə qayıt

Samux rayonundan bir qadın şələsində uşaq, əlində ağır zənbil yayın qızmar günündə qan-tər içərisində Gəncəyə tərəf gəlir. Bağırov Bakıdan Gəncəyə gəlirmiş. Həmin qadınla rastlaşır. Soruşur:

- Bacı, yayın istisində belə ağır vəziyyətdə hara gedirsən?

- Mənim dərdimə ki əlac edən deyilsiniz, yolunuzla ötüb gedin.

Bağırov təkid edir:

- Dərdini söylə, bəlkə əlac tapıldı.

Qadın bildirir ki, dəfələrlə Mir Cəfər Bağırova ərizə yazmışam. Məktubu rayonda götürürlər. Mir Cəfər Bağırov yoldaşa çatmağa qoymurlar. Ərimi həbs ediblər. Gəncə qalasında yatır. Ona çörək aparıram. Özüm Samuxdanam.

Bağırov ona deyir:

- Geri qayıt, evinə get. Ərini evində gözlə, gələr.

Qadın nə isə duyur. Kişinin dedikləri ilə razılaşıb evinə dönür.

Qadının əri axşam həbsxanadan azad olunub evinə gəlir. Qadın anlayır ki, onunla qarşılaşan Mir Cəfər Bağırov imiş.

## Bağırov xeyirxah insana kömək edir

Mir Cəfər Bağırov inqilab ərəfəsində düşmənlər tərəfindən möhkəm izlənir. Şəmkirin Dəllər bölgəsində təhlükə daha da yaxınlaşır. Bir kişi onu quyuda gizlədir. Bağırov ondan bir mis qazan və bir məcməyi istəyir. Qazana su tökür. Ayın işığı qazana düşür. İşıq bərq vurduqca əksi mis məcməyiyə düşür. Mir Cəfər Bağırov bu işıqdan istifadə edib bir məktub yazır. Təhlükə sovuşduqdan sonra Mir Cəfər Bağırov getməli olur.

Mir Cəfər Bağırov bir kağıza qol çəkib həmin kişiyə verir və deyir:

- Al saxla, bir gün gərəyin olar.

Zaman dolanır, həmin kişini 7-8 inəyinə, bir neçə qoyununa görə xalq düşməni çıxarırlar.

O, məktubu sürgün komissiyasının sədrinə göstərir, M.C.Bağırovun imzasını tanıyırlar və kişini dərhal azad edirlər.

## Təzə yol çəkilir

Bağırov Göy gölə getməli olur. Onu Gəncə şəhər rəhbərləri müşayiət edirlər. Göy gölə çatar-çatmaz maşının təkəri çamırlı çuxura düşür. Mir Cəfər Bağırov gölməçənin o tayına keçəndən sonra maşından düşüb deyir:

- Gəncə şəhər Partiya Komitəsinin I katibindən soruşuram. Gələn il də Göy gölə bu yolla gələcəyik?

- Yox, yoldaş Bağırov, Göy gölə təzə yol çəkəcəyik.

Doğrudan da, bir il ərzində Göy gölə yeni yol çəkilir. Bağırovun dediyi heç bir söz təsirsiz və nəticəsiz qalmamışdır.

## Qarının evi yanmışdı

Müharibə vaxtı Səfərəliyev (indiki Samux) rayonunun Nəbiağalı kəndində bir qarının evi yanmışdı. Raykoma, ispalkoma hara müraciət edirdi, kömək edən yox idi. Qarı, keçə ilə düzəldilmiş alaçıqda qalmışdı.

Bir gün qarı arxda paltar suya çəkirdi. Bir də baxıb ki, bir maşın gəlir. Güman etdi ki, belə maşınlarda böyüklər gəzər. Paltarı arxın qırağında qoyub maşına tərəf yüyürdü. Maşın dayandı və nurani bir kişi düşüb soruşdu:

- Bacı, bu nə təlaşdı, keçirirsən?

- Qardaş, qurbanın olum, mən belə düşündüm ki, maşında gələn böyük adamlardan biri olar, ondan imdad almaq üçün qaçıb gəldim.

Mir Cəfər Bağırov dedi:

- Nə sözün var, deyə bilərsən.

Qarı elə bil ki, özündə cəsarət tapdı, sözə başladı.

- Qadan alım, aman-zaman bircə oğlum var. O da, müharibədə döyüşdədi. İki aydan artıqdır ki, evim yanıb. Rayonun rəhbərlərinə hey müraciət edirəm, bir kömək yoxdur. Yarıörtülü, yarıaçıq alaçıqda qalmışam.

Mir Cəfər Bağırov rayon rəhbərlərini arxın qırağına çağırtdırdı.

Onun rayonun birinci katibinə ilk sözü bu oldu:

- Siz haraya baxırsınız? İki gün Samux rayonunda olacağam. Mən qayıdana qədər bu qarının evi hazır olsun.

Onun Gəncəbasarda iki inandığı dostu var idi. Biri Sünnilər kəndinin kolxoz sədri, Sosialist Əməyi Qəhrəmanı Rüstəm Əliyev, ikincisi isə Samux çal-bərəsində çalışan Mustafa kişi idi.

Rüstəm Əliyevin evində çörək kəsərdi, Mustafa kişidən isə hal-əhval tutardı. Mustafaya inamı vardı. Mustafa bircə kəlmə ilə deyərdi:

- Yoldaş Mir Cəfər Bağırov, külək düzünə əsir. Müəyyən problem olanda isə deyərdi: havalar tez-tez qarışır.

Mir Cəfər Bağırov onunla beləcə görüşüb geri dönərdi.

Mir Cəfər Bağırov Nəbiağalı kəndinə qayıdana qədər qarıya iki mərtəbəli ev tikib qurtarmışdılar.

Mir Cəfər Bağırov dedi:

- Müharibə qurtardıqdan sonra kəndlərdə belə iki mərtədəli evləri çox tikəcəyik.

## On nəfərdən birincisi Səməd Vurğun olmalıdır

Respublika fəallarının yığıncağında Mir Cəfər Bağırov sevimli şairimiz Səməd Vurğunu bərk tənqid etdi.

Ürəklər suya döndü. Salona elə bil qar ələndi. Hamı qəlbində deyirdi:

- Heyf, Səməd Vurğun da belə getdi.

Yığıncağın ikinci yarısında respublikanın görkəmli ziyalılarından on nəfəri Moskvaya mötəbər tədbirlərdə iştirak etməyə göndəriləcəkdi. Mir Cəfər Bağırovun tənqidindən sonra heç kim cürət edib Səməd Vurğunu o siyahıya daxil edə bilməzdi. Qəflətən Mir Cəfər Bağırov dilləndi və gur səslə dedi:

- O siyahıya Səməd Vurğunun adını birinci yazın.

Elə bil salona sevinc yağışı yağdı, üzlərə günəş işığı düşdü. Hamı ayağa qalxdı, əl çaldı, gurultulu alqışlar qopdu. Bunun nə demək olduğunu Mir Cəfər Bağırov da, Səməd Vurğun da dərindən duydular.

## Komvol fabriki dayandırılır

Mir Cəfər Bağırova komvol fabrikindən məktub gəlir. Mərkəzi Komitənin işçilərindən bir nəfər fabrikin vəziyyəti ilə tanış olmağa göndərilir. Məlum olur ki, fabrikin direktoru, partkomu, baş mühasibi, briqadirləri - hamısı ermənidir. Əsas işi görənlər də ermənilərdir. İkicə nəfər azərbaycanlı qadın xadimə vəzifəsində işləyir. Onlar otaqları və həyəti süpürməklə məşğuldurlar. Bu məlumatdan sonra fabrik bir müddət bağlı qalır. Sonra fabrikə gedənlər görürlər ki, burada işləyənlərin əksəriyyəti azərbaycanlılardır.

## Raykom özü öz cəzasını verdi

Mir Cəfər Bağırov Mərdəkandakı makaron fabrikinin yanından keçərkən gözü nəyəsə sataşdı. Sürücüyə dedi ki, maşını dayandır. Özü maşından yerə düşüb fəhlələrə diqqət yetirdi. Fabrikə gedən yolda nəzarətsizlikdən gölməçə əmələ gəlmişdi. Bu sudan keçərkən işə gedən qız-gəlinin, oğlanın, kişinin üst-başı batırdı. Bir sözlə, fəhlələr işə gələndə də, qayıdanda da çox əziyyət çəkirdilər.

Mir Cəfər Bağırov sürücüyə göstəriş verdi ki, mənim rezin çəkmələrimi maşının yük yerindən çıxarıb gətirin. O, rezin çəkmələri geyinib palçıqlı gölə girdi və boz-bulanıq suyun ortasında dayandı. Göstəriş verdi ki, raykomun birinci katibini buraya çağırsınlar. Raykom katibi ayağında təzə tufli, əynində təzə şalvar-pencək Mir Cəfər Bağırovu gölün ortasında görəndə geyimli - kecimli özünü suya vurdu, başdan ayağa çamura batdı.

Mir Cəfər Bağırov dedi:

- Özün öz cəzanı verdin. Günahından keçirəm. Bir həftə vaxt verirəm. Bu su kanalizasiyaya axıdılmalı və fəhlələr üçün gediş-gəliş yolu qaydaya salınmalıdır.

Mir Cəfər Bağırovun tək bir nəfər cangüdəni var idi, o da onun sürücüsü idi.

Bağırovun sürücüsü deyirmiş ki, onun elə yaddaşı vardı, heç nəyi dəftərə, vərəqə qeyd etməzdi. Lakin təyin etdiyi vaxtda dediyi yerdə olardı.

Mir Cəfər Bağırov Mərdəkandakı makaron fabrikinin yanına gəlir və gölməçənin yox olduğunu, yolun düzəldiyini görüb geri qayıdır.

## Onu da deməyiblər

Mir Cəfər Bağırov Bakı tərəfdən gəlirmiş. Goranboy rayonunun Borsunlu kəndindən keçərkən görür ki, burada tələbələr pambıq yığır, ancaq bir nəfər tarlanın başında durur, yoldaşlarına tərəf boylanır. Maşını dayandırır, düşür, oğlanı yanına çağırıb deyir:

- Hamı pambıq yığmaqla məşğul olduğu halda, sən nə üçün boş-bekar dayanmısan?

Tələbə dillənir:

- Əmi, Göyçənin Cil kəndindən Gəncəyə pambıqçılıq texnikumuna oxumağa gəlmişəm. Göyçədə pambıq əkmirlər, pambıq yığdıqca kollar əlimi dalayır.

Bağırov pambıq yığan önlüyü belinə bağlayır və deyir:

- Diqqət yetir gör, pambığı necə yığarlar.

O, bir ləkin pambığını yığır. Məktəbin direktoru «M-1» markalı maşını görüb qaça-qaça gəlir. Bağırovu görür, yerindəcə donub qalır. Sükutu Mir Cəfər Bağırov pozaraq deyir:

- Nə üçün Göyçədən gələn uşağa pambıq yığmağı öyrətməmisiniz.

Önlüyü tələbə Şəmistana verir və deyir:

- Bunu belinə bağla, pambığı yığ, görüm, necə yığırsan.

Tələbə Şəmistan pambıq yığmağa başlayır və bar açmış qozanın yarısını götürür, yarısı üstündə qalır.

Mir Cəfər Bağırov deyir:

- Bala, sənə nə pambıq yığmağı öyrədiblər, nə də pambığın böyük sərvət olduğunu deyiblər. Pambıq səpilir, becərilir, böyük zəhmət bahasına başa gəlir. Pambıq Azərbaycan təsərrüfatının canıdır.

## Cəngi havası

1938-ci ildə Moskvada Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyü keçirilərkən. Stalinlə M.C.Bağırov yanaşı oturublarmış. Qəflətən pərdə açılır, qara zurnada «Cəngi» havası çalınır. Stalin qeyri-ixtiyari ayağa qalxır və yorulanadək əl çalır.

Nəhayət, Səməd Vurğun Stalinə həsr etdiyi «Bakının sayrışan ulduzlarından, salam gətirmişəm hüzuruna mən» şerini söyləyir.

Stalin deyir:

- «Cəngi» havası keçmişdə Bakıda yaşadığım günləri, Səməd Vurğunun şeri isə bu günümü canlandırdı.

## Məhkəmədən fraqment

Mir Cəfər Bağırovun məhkəməsi gedirdi. Elan edirlər ki, Bağırov haqqında kim nə bilir, gəlib desin.

Kim nə danışırsa danışsın, Mir Cəfər Bağırov başını qaldırıb o adamın üzünə baxmırdı. Birdən gözəl bir qadın məhkəmə salonuna daxil oldu. Əlini qaldırıb dedi:

- Mir Cəfər Bağırova mənim bir sualım var. Mənim ərim nazir idi. Desin görək, onu niyə güllələyib?

Mir Cəfər Bağırov başını qaldırıb qadının üzünə bircə dəfə baxdı və dedi:

- Bu suala filan ünvanda yaşayan bir qadın cavab verəcək.

Adam göndərib dərhal o qadını gətirdilər. Qadın heç kəsə məhəl qoymadan bir başa Bağırova tərəf getdi, salam verdi və əllərindən öpdü.

Qadın hadisəni danışdı: «Mən qızımı nazirliyə işə göndərdim. Nazir gənc qızımı işə götürdü və bir neçə gündən sonra qızımı özünə katibə qoydu. Az bir müddətdən sonra qızım bildirdi ki, nazir onu korlayıb. Mən Bağırovun yanına şikayətə getdim. O, məni və qızımı nazirliyə göndərdi və bir müddətdən sonra özü də buraya gəldi. Bağırov nazirə göstəriş verdi ki, arxa otağın qapısını açsın. Qapı açıldı və onlar otağa daxil oldular. Bu zaman biz də otağa girdik. Nazir bizi görən kimi Bağırovun ayaqlarına düşərək yalvardı:

- Yoldaş Bağırov, məni bağışla, qələt eləmişəm.

Bağırov heç bir söz demədən tapançanı çıxarıb naziri güllələdi.

Bayaq ərinin güllələnməsindən şikayət edən qadın əlini sinəsinə qoyub Bağırovdan üzr istədi».

**(Bu əhvalatı məhkəmənin iştirakçısı olan Şəmkir rayonunun Qaracəmirli kəndinin sakini Əndriyar kişi danışıb).**

## Yenə içəcəyəm

Mir Cəfər Bağırova çatdırırlar ki, Əliağa Vahid bir şair kimi öz hərəkətlərinə nəzarət etmir. Hər gün içir,

münasib olmayan yerdə qəzəl oxuyur, meyxana deyir. Bu isə Azərbaycan ədəbiyyatının adına, şərəfinə ləkə gətirir.

Mir Cəfər Bağırov Ə.Vahidi yanına çağırtdırır, xeyli söhbətdən sonra deyir:

- Bax, aramızda yaxşı dostluq münasibəti yarandı. Mənə söz ver, mənim canıma and iç ki, bir də içməyəcəksən.

Əlağa Vahid qətiyyətlə deyir:

- Yoldaş Bağırov, canınıza and olsun ki, yenə içəcəyəm.

Söz M.C.Bağırovun xoşuna gəlir və mülayim səslə deyir:

- Xətrinə dəymirəm, get iç. Amma, çalış, ölçünü itirmə.

## Ananın məktubu

Şəmkir rayonunun Qaracəmirli kəndində bir əsgər anası maddi cəhətdən çətin yaşayırmış. Bu zaman oğlanın dayısı bacısına deyir ki, oğlun cəbhədə döyüşür. Ona yaz ki, sən burada dilənirsən. Ananın məktubu oğluna çatır, oğlan isə Mir Cəfər Bağırova söyüş dolu məktub yazır.

Mir Cəfər Bağırov məktubu alır və Şəmkirə gəlir. Kənd rəhbərləri əsgər anasına bildirirlər ki, sən sərt danışsan Mir Cəfər Bağırov hamımızı güllələyəcək. Biz isə sənin kəndlilərinik, ona görə də xahiş edirik, sərt danışma.

Mir Gəfər Bağırov əsgər anasından soruşur:

- Necə yaşayırsan?

- Yoldaş Bağırov, müharibədir, vəziyyət ağırdır, hamı necə, mən də elə. Yəqin oğluma mənim adımdan qohumlardan biri məktub yazıb.

Mir Cəfər Bağırovun göstərişi ilə əsgər anasının ev-eşiyi sahmana salınır, evinə ərzaq məhsulları göndərilir və Bağırov rayonun birinci katibinə tapşırır ki, o qadına hər ay yüz manat pul verilsin.

Bundan sonra ana oğluna məktub yazır ki, Mir Cəfər Bağırov şəxsən onun həyatı ilə maraqlanıb. Hər şey qaydasındadır və sən də müharibədə əsil

vətən oğlu kimi vuruşmaqda davam et.

## Fonddan yüz manat

Mir Cəfər Bağırov respublika prokuroru Pənah Xəlilovu yanına çağırıb deyir:

- Naxçıvanda vəziyyət yaxşı deyil, vəziyyəti düzəltmək üçün səni iki illiyə oraya göndərirəm. Mənə sualın varmı?

- Var, yoldaş Bağırov, üzr istəyirəm, təzə evlənmişəm, bir körpəmiz də var. Yüz iyirmi manat məvacib alıram. Bu məvaciblə də ailəyə baxmaq olmaz.

Mir Cəfər Bağırov mühasibi çağırır və ona tapşırır ki, bu prokurora Mərkəzi Komitənin fondundan hər ay yüz manat pul ayrılsın.

P.Xəlilov iki il Naxçıvanda qulluq edir. Vaxtı bitdikdən üç gün sonra Bağırov ona zəng edir və deyir:

- Özüm qəsdən üç gün gec zəng etdim, sən təmkinli oldun. Sağ ol, layiqincə qulluq etdin və sabahdan geri qayıda bilərsən.

## Kartof satan kişi

Mir Cəfər Bağırov müharibə vaxtı bir gün Bakı bazarında gəzirdi və bu zaman Gədəbəyli bir kişinin kartofu baha qiymətə satdığını görür. Bağırov ona yaxınlaşıb deyir:

- Qardaş, müharibədir, şəhər adamlarının da çətinlikləri çoxdur, kartofu bir qədər ucuz satsan nə olar?!

Kişi deyir:

- Bu, mənim bir illik zəhmətimin məhsuludur. Allah Mir Cəfər Bağırova insaf versin, yollara o qədər post qoydurub ki, Bakıya çatana qədər kartofun yarı pulunu müfəttişlər əlimizdən alır.

Bağırov elə həmin gün göstəriş verir ki, Gəncə-Bakı arası bütün postlar yığışdırılsın, tək bircə post saxlanılsın.

## Papaq qeyrətdi

Mir Cəfər Bağırov Mozdoka - 416-cı Azərbaycan diviziyasının əsgərləri ilə görüşə gedir. Bu zaman almanlar hücuma keçirlər. M.C.Bağırov əsgərlərə bildirmədən papağını bir təpənin üstündə qoyur. Ordu on kilometr geri çəkilməli olur. Bağırov əsgərlərə bildirir ki, papağım söhbət etdiyiniz təpədə qalıbdı. Azərbaycan oğulları bir-bir irəli çıxaraq deyirlər:

– Papaq qeyrətdir, yoldaş Bağırov, onu düşmənə vermək olmaz.

Əsgərlər öz qüvvələrini səfərbərliyə alıb böyük ruh yüksəkliyi ilə hücuma keçirlər. On kilometr irəlilə-yərək düşməni geri çəkilməyə məcbur edirlər. M.C.Bağırov papağını başına qoyaraq deyir:

- Papağımızı başımızda qeyrətlə daşımaq üçün böyük ruh yüksəkliyi ilə döyüşməli, düşmənə gözünü açmağa bir an belə imkan verməməliyik.

**(Bu söhbət Kəlbəcər rayonundakı Zəylik kənd sakini Fəxrəddin Musayevin dilindən yazıya alınmışdır).**

## Stalin deyir: - Bağırovsuz heç bir qərar qəbul etmək olmaz!

Bir gün Stalin Mir Cəfər Bağırovu Kremlə çağırır və deyir:

- Ermənistan Ali Soveti sessiya çağırıb. Dağlıq Qarabağın ermənistanın tərkibinə qatılmağını SSRİ Ali Sovetindən xahiş edir. Sizin fikriniz nədir?

M.C.Bağırov deyir:

- Yoldaş Stalin, mən fikrimi kürsüdə deyəcəm.

Söhbət hər ikisinin arasında bitir.

Kremlin iclas zalında sessiya başlanır. Ermənistan tərəfi alovlu çıxış edir, yekunda isə ermənipərəst qüvvələr, məruzəçini sürəkli alqışlarla qarşılayaraq əl çalırlar.

Söz verilir M.C.Bağırova. Bağırov üzünü sessiya iştirakçılarına tutaraq deyir:

- Yoldaşlar, sərhədimiz bir, pul vahidimiz bir, gerbimiz bir, konstitusiyamız bir. Bütün Sovet xalqları kimi, Azərbaycan və Erməni xalqları da faşist Almanyasına qarşı çiyin-çiyinə mətanətlə vuruşmuşlar. Mən bilirəm ki, Ermənistanın kənd təssərrüfatında yararlı torpaq sahələri azdır. Mən Ermənistan sessiyasının qərarını bəyənirəm, Dağlıq Qarabağın Ermənistana verilməsinin tərəfdarıyam, lakin Azərbaycanın qədim torpaqları olan Göyçə mahalı, Dərələyəz mahalı, Zəngəzur mahalı, Borçalı mahalı və Dərbənd Azərbaycan ərazisinə qatılsın.

Stalin Mir Cəfərin axırıncı sözünü eşidən kimi Ermənistan Ali Sovetinin qərarının üstündən qırmızı karandaşla yazır **«Nelğzə».** Bununla da iclas sona çatır.

## Stalin və Bağırov dostluğuna nümunə

Məmmədəmin Rəsulzadənin atası din xadimi idi. Bir gün Stalini Bakıda xəfiyyələr bərk axtarırlar. M.Rəsulzadə Stalini atasının azan çəkdiyi minbərin altında gizlədir. O, Stalinə deyir:

- Biz dostuq, lakin əqidəmiz ayrıdır. Sizi Moskva göndərib ki, Bakıda bolşevik dövləti yaradasınız. Mən isə Müsavat hökumətini qurmaqla məşğulam.

Vaxt gəlir, Stalin Moskvada böyük rəhbərlərdən biri olur. Müsavat hökumətini yıxırlar. M.Rəsulzadəni isə Bayıl həbsxanasına salırlar. Stalin bundan xəbər tutur, M.Rəsulzadəni Bayıl həbsxanasından çıxarıb özü ilə aparır, Türkiyəyə getmək üçün ona kömək edir.

Sonralar bu dostluq Stalinlə Bağırov dostluğuna bir örnək olur. Stalinlə Bağırovun əqidə birliyi Hitlerin işğalçı ordularının Zaqafqaziyaya daxil olmasına imkan vermir.

## Çay məsələsi

Mir Cəfər Bağırov Goranboy rayonunun Dəliməmmədli qəsəbəsinə gəlir. Görür ki, adamlar bazara doğru hərəkət edir. O, maşınını dayandırıb axına qoşulur. Burada arıq bir kişi çay verir, hamı da onun çayını ləzzətlə içirdi. Həmin adam Bağırova da bir stəkan çay süzür, ancaq onun kim olduğunu tanımır. Bağırov çayın yarısını nəlbəkiyə süzür ki, soyusun. O, cəld yerindən tərpənir, nəlbəkidəki, stəkandakı çayı yerə tökür və deyir:

- Mənim çayımın ləzzətini qaçırtma.

Çayçı ikinci dəfə çay süzüb gətirir. Bağırov onun ətirli çayından ləzzət alır. Beş qəpik əvəzinə bir şaxlı manat verib gedir.

Bir ildən sonra Bağırov yenidən Dəliməmmədliyə gəlir. O çayçının yerində başqa, yekəpər bir çayçının işlədiyini görür. Bağırova bildirirlər ki, çayxanaya qoyulmuş papiros satışından 24 qəpik artıq pul aldığı üçün ona beş il həbs cəzası verilmişdir.

Bağırov tapşırır:

- Həmin çayçını həbsdən azad edib, geyindirib-kecindirib mənim yanıma gətirin.

Çayçını M.C.Bağırovun yanına gətirəndə görür ki, bir il bundan əvvəl ona bir manat verən kişidir. Bağırov deyir:

- Nə üçün mənə ərizə yazmamısan?

Çayçı kövrələ-kövrələ cavab verir:

- Yoldaş Bağırov, savadım yoxdur. Barmaq basmaqdan başqa heç nə bilmirəm.

## Məşədi Abbas

Məşədi Abbas uzun illər Ağdam rayon kommunal idarəsinin müdiri vəzifəsində çalışıb. M.C.Bağırovla Məşədi Abbas arasında möhkəm və səmimi dostluq olub. M.C.Bağırov Qarabağ tərəflərə səfər edəndə mütləq Məşədi Abbasla görüşər və onunla çörək kəsərdi. M.C.Bağırovla Məşədi Abbas o qədər yaxın olub ki, o, zəhmli rəhbərə həmişə Mir Cəfər deyə, adı ilə müraciət edib.

M.C.Bağırov mənəviyyatı təmiz olmayan adamla qəti əlaqə saxlamazdı. Bir dəfə necə olursa, Məşədi Abbasa bir hinduşka gətirirlər. Məşədi Abbas hinduşkanı geri qaytarır, qaytarmır, bilmirəm. Təkcə onu eşitmişəm ki, Bağırov Ağdama gələndə Məşədi Abbasa deyir:

- Bir məsələ eşitmişəm, bilmirəm inanım, inanmayım?

Məşədi Abbas gülə-gülə cavab verir:

- Yəqin ki, hinduşka zarafatı Sizə də gedib çatıb.

## Sən çekist deyilsən

Mir Cəfər Bağırov bir neçə gün idi ki, Gədəbəy rayonunda idi. O, Təhlükəsizlik Komitəsinin Gədəbəy rayon şöbəsinin rəisindən soruşur:

- Sən nə üçün Qaçaq Mehrəlini tutmursan?

Şöbənin rəisi Məmmədov deyir:

- Yoldaş Bağırov, camaat Mehrəlini qoruyur, gizlədir, ələ vermir.

M.C.Bağırov deyir:

- Siz düz demirsiniz. Dünən mən Hacılar kəndində Qaçaq Mehrəli ilə bir yerdə oturub çay içib, söhbət etmişəm. O, məni tanımadı, mən də tanışlıq vermədim. Məmmədov, sən çekist deyilsən. Özünə başqa peşə seç.

## Misəritmə zavodu

İstirahət günü olur. M.C.Bağırov Gədəbəyin Maarif kəndindəki kolxoza gəlir. O, görür ki, misəritmə zavodunun fəhlələri buraya iməciliyə gəlib. Taxıl zəmilərinin alasını təmizləyirlər.

M.C.Bağırov fəhlələrlə görüşüb deyir:

- Siz istirahət günü möhkəm dincəlməlisiniz. Başqa günlərdə isə gecə-gündüz mis əritməklə məşğul olmalısınız. Cəbhə bizdən mis gözləyir. Siz bilirsiniz ki, misdən tüfəng gülləsi və başqa silah növləri hazırlanır.

Zavodun direktoruna macal vermədən sex rəisi Əli Səfərov söz alıb çıxış edir:

- Yoldaş Bağırov, misəritmə zavodunun fəhlələrinə qayğı çox azdır. Fəhlələrin xüsusi geyimi, rezin çəkməsi yoxdur.

Bağırov Bakıya qayıdan kimi fəhlələr üçün 400 rezin çəkmə, paltar və baş geyimi göndərir.

## Qızqayıt Həsənova

Özbək pambıqçıları Azərbaycan tarlalarını gəzib Bakıya dönmüşdülər. M.C.Bağırov pambıqçıların yekun iclasını çağırmışdı. Özbək pambıqçıları, xüsusən gənc qızlar bir–bir tribunaya çıxıb yeni öhdəliklər götürür, Azərbaycan pambıqçılarını yarışa çağırırdılar. Elə bu vaxt Qızqayıt Həsənova icazəsiz, bir başa, həyəcanlı şəkildə tribunaya çıxdı və dedi:

- Mən Özbəkistan pambıqçı qızlarının yarışına qoşuluram. Bu il onların qəbul etdiyi nəticədən də yuxarı rekord, nailiyyət qazanacağıma söz verirəm. Mən topladığım yüksək məhsulu bütün Azərbaycan pambıqçılarının qarşısında nümayiş etdirəcəyəm.

Bağırov ayağa qalxıb sevinclə dilləndi:

- Bu arıq, cansız qızın cəsarətinə baxdınızmı? Bütün pambıqçılarımızdan qabaq cəsarət göstərdi. Elə onun bugünkü hərəkəti qəhrəmanlığa layiqdir.

Qızqayıt Həsənovanın qəhrəmanlığının bünövrəsi bu iclasda qoyuldu. Onun yüksəlişi buradan başlandı.

## Kinto

İsrafil İsmayılov orta məktəbdə mənim ədəbiyyat müəllimim olmuşdu. Onun əsli İsmayıllı rayonunun Basqal qəsəbəsindəndir. O, 1937- ci ildə Hüseyn Cavid, Mikayıl Müşfiq və başqaları ilə həbs olunmuş və bir qədər sonra azadlığa buraxılmışdı. Ona mərkəzi yerlərdə yox, uzaq rayonlarda nəzarət altında dərs deməyə icazə verilmişdi. Demək olar ki, hər gün içki içirdi. Mən 10-cu sinifdə oxuyurdum. Bir gün dərs dediyi yerdə İsrafil müəllimin gözü Stalinin şəklinə sataşdı. Sinfin ortasında dayanıb bir an şəkli seyr etdi və uca səslə dedi:

- Mir Cəfər Stalinin kintosudur - və izah etməyə başladı - Gürcülər oyun həvəskarına, rəqs edənə, mütrübə kinto deyirlər.

O, əlini Stalinin şəklinə uzadıb dedi:

- Bax, bu da gürcülər demiş Mir Cəfər Bağırovun kintosudur.

Həmin dərs İsrafil İsmayılovun axırıncı dərsi oldu. Mən bir də onu 1956-cı ildə Gəncənin şəhər parkında gördüm. O, qeyd etdi ki, 1949-cu ildə məni Sibirə göndərdilər. Rus arvadım Mariya arxamca Sibirə gəldi, məni ölməyə qoymadı. Stalindən, M.C.Bağırovdan sonra məni azad etdilər. Gəncədə mənə xüsusi ev verdilər, təqaüd təyin etdilər. Vəfalı Mariyanı da Gəncəyə gətirmişəm.

## Məzahir Daşqının məktubu

El şairi Məzahir Daşqın (Borsunlu) respublikamızın Tərtər rayonundan hərbi xidmətə gedir və döyüş zamanı əsir düşür. O, Berlinə qədər gedir. Almanlar tərəfə keçir, komandir vəzifəsi daşıyır, «Vətənin səsi» adlı curnal çap etdirir. Bu jurnalın səhifələrində Stalin, Mir Cəfər Bağırov haqqında həcvlər yazıb nəşr etdirir, onların ünvanına söyüşlər yağdırırdı. Məzahir Daşqın o qədər şöhrət qazanır ki, Qafqazın alınmış torpaqlarını seyrə çıxır. Maraqlı şerlər yazır. Nəhayət, M.C.Bağırova məktub göndərir ki, qoy, Almaniya qalib gəlsin, sənin stolunda mən oturacağam.

Əsirlər geri qaytarılarkən Məzahir də onlarla geri qayıdır. M.C.Bağırovun tapşırığı ilə onun dişlərini kəlbətinlə bir-bir çəkib, mismar kimi başına çalırlar. Nəhayət, ömürlük Sibirə göndərirlər.

«Ayrılıq karvanını, qəm qatarını» oxuyan Səməd Vurğun bundan təsirlənir və deyir:

- Məzahir Daşqının şəxsiyyətinə bələd deyiləm, amma onun istedadına söz ola bilməz.

Səməd Vurğun Moskvaya gedir, yazıçı Fadeyevi də götürüb Sibirə gəlir. Məzahiri əsirlikdən azad etdirir.

## Savalan kişi və Mir Cəfər Bağırov

Savalan kişi inqilab illərində Mir Cəfər Bağırovla bir yerdə olmuşdur. İllər keçir, M.C.Bağırov müharibədən sonra öyrənir ki, Savalan kişinin ailəsi Xanlar şəhərində yaşayır. Məlumat alır ki, Savalanın Tarix adlı tarixçi bir oğlu var. O, Tarixi yanına çağırtdırır. Oğlan Bağırovun adını eşidib çox qorxur. Görüş zamanı M.C.Bağırov deyir:

- Xanlar pedaqoji texnikumu haqqında yaxşı xəbərlər gəlmir. Səni oraya direktor göndərirəm. Bu şərtlə ki, orada Savalan kişinin adına layiq işləyəsən.

## Mir Cəfər Bağırovla və Beriyanın əlaqəsi

Bir azərbaycanlı oğlan nə işlə əlaqədarsa marşal Jukovun qəbulunda olur. Jukov deyir ki, sizin Bağırov çox cəsur və igid adam idi. Stalin 1943-cü ildə məni qəbuluna çağırdı və dedi:

- Azərbaycan əsgərləri ürəkdən döyüşmür, meylləri Türkiyədə və İrandadır.

Stalin büro üzvlərini çağırtdırdı. Beriya dedi:

- Qətiyyən azərbaycanlıları köçürmək olmaz. Azərbaycanlılar döyüşmürsə, bəs onda azərbaycanlı Sovet İttifaqı Qəhrəmanları haradan meydana çıxır? Hər gün qəzetlər Azərbaycan döyüşçülərinin şücaətindən və qəhrəmanlığından yazır. Yoldaş Stalin, bunu Sizə kim deyib?

- Anastas Mikoyan.

Beriya zəng edib məsələni M.C.Bağırova çatdırır. M.C.Bağırovun Stalinlə bir neçə dəqiqəlik görüşü hər şeyi dəyişir. M.C.Bağırov Yaqubova zəng edib deyir ki, hər şey bizim xeyrimizədir. Arxayın işinizi davam etdirin.

## Sən azərbaycanlısan?

1950-ci ildə Safikürddən olan İslam adlı bir oğlan hüquq fakültəsini bitirmişdi. Lakin neçə ay idi ki, Respublika Prokuroru ona iş vermirdi. Oğlan vəziyyət haqqında Stalinə teleqram vurur. Mir Cəfər Bağırov gənc hüquqşünası yanına çağırtdırır və ona deyir:

- Sən azərbaycanlısan. Nə üçün başımızın üstündən Moskvaya teleqram vurursan?

Gənc susub dinmir. M.C.Bağırov Respublika Prokurorunu yanına çağırtdırıb ondan soruşur:

- Sənin bütün işçilərin ali təhsillidir? Nə üçün Vətən müharibəsindən gəlib ali təhsil almış bu gəncə iş vermirsən?

M.C.Bağırov öz telefon nömrəsini İslama verir və deyir:

- Harada işə başlasan, mənə zəng et.

İslam iki gündən sonra zəng edib bildirir ki, Xaldan rayonunda prokuror vəzifəsində işləyir.

## Kişi məsələsi

Mir Cəfər Bağırovun məhkəməsi davam edən anda SSRİ-nin Baş Prokuroru Rudenko istehza ilə ondan soruşur:

- Nə üçün sənə kişi deyirlər?

- Xalq hər kəsi sınaqdan keçirir. Kişi olana kişi deyir. Elə bilirsiniz ki, gələcəkdə Sizə də kişi deyəcəklər?

## Atına heykəl qoyulub

Daşkəsən rayonunun Qazaxyolçular kənd sakini Süleyman Mövlayev müharibədən sonra Mir Cəfər Bağırova məktub göndərir: «Yoldaş Bağırov, bizim kənddən əsgər gedənlərin salamat qalanları qayıtdı, ölənlərin qara kağızı gəldi. Lakin mənim Kürənim cəbhəyə getdi, qayıtmadı. Atımın cəbhədə göstərdiyi qəhrəmanlıq haqqında müharibə illərində çoxlu məktub aldım. Bu məktubları yazan öz kəndimizin övladları idi. Müharibə qurtardı, mənim atımdan bir xəbər çıxmadı».

M.C.Bağırov Süleyman kişiyə cavab məktubu yazdıraraq bildirir ki, sənin atın cəbhədə qəhrəmanlıqla həlak olduğu üçün Leninqradda ona möhtəşəm heykəl qoyulmuşdur.

Leninqraddakı at heykəlinin şəklini zərfə qoyub Süleyman kişiyə göndərirlər. Süleyman kişi kimə rast gəlsə bu şəkli çıxarıb göstərir və deyirdi:

- Mənim Kürənim cəbhədə qəhrəmanlıq göstərib, ona Leninqrad kimi böyük şəhərdə heykəl qoyublar.

## M.C.Bağırov Qərbi azərbaycanlıların Qazaxıstana köçürülməsinin qarşısını alır

Stalin 1947-ci ildə Mikoyanın xahişi ilə qərar qəbul edir ki, İrəvanın ayrı-ayrı bölgələrində, yəni Qərbi Azərbaycanda yaşayan azərbaycanlılar Qazaxıstana köçürülsün. Onların yaşadıqları ərazilərdə Livandan, Suriyadan, İrandan, Fransadan gətirilmiş ermənilər yerləşdirilsin. Bundan xəbər tutan Mir Cəfər Bağırov təyyarə ilə Moskvaya uçur. Mir Cəfər Bağırov Qərbi

azərbaycanlıları ayrı cür xilas etmək mümkün olmadığını Stalinə deyir:

- İrəvanın ayrı-ayrı bölgələrindən olan azərbaycanlıları Qazaxıstana göndərməyək. Azərbaycanın torpağı da var, suyu da. Onları Azərbaycanın ayrı-ayrı rayonlarında yerləşdirək.

Ciddi cəhd nəticəsində Mir Cəfər Bağırov Stalinin razılığını alır, lakin Ermənistan Ali Soveti sədrinin müavini Mirzə Bəşirov inad göstərir ki, biz öz ata-baba yurdumuzu qoyub getməyəcəyik. Mir Cəfər Bağırov Teymur Quliyevi Ermənistana ezam edir və tapşırır ki, sən Bəşirov Mirzəni başa sal ki, Stalin bu məsələni eşidən kimi, fikrini dəyişəcək. Azərbaycanlılar Qazaxıstan çöllərində saysız-hesabsız itki verəcəklər. Mirzə Bəşirov on nəfərlə Azərbaycanın Şəmkir, Xanlar, Mir Bəşir və Bərdə rayonlarını gəzir. Mir Cəfər Bağırov maşın təşkil edərək azərbaycanlıları sağ-salamat Azərbaycana köçürtdürür.

Beləliklə, müharibə dövründə Azərbaycanın Qazaxıstana köçürülməsinin, müharibədən sonra isə Qərbi azərbaycanlıların Qazaxıstana köçürülməsinin qarşısını alır.

## «Ayrı Mir Cəfər də varmış»

Mir Cəfər müəllim Göyçədən Gəncəyə köçmüşdür. Bir gün Göyçənin Daşkəndindən olan Aşıq Hacı Bayramov Mir Cəfər müəllimgilə qonaq gəlir. O, Mir Cəfərə müraciətlə deyir:

- Mingəçevirin Tanrıqulular kəndində iki dayım oğlu yaşayır. Gəl, birlikdə onlara qonaq gedək.

Onlar Tanrıqulular kəndində Mehdi və Camal qardaşlarının qonağı olurlar. Sabahısı gün Mir Cəfər bildirir ki, getməliyəm, Gəncədə təcili işim var. O, kəndin kənarındakı təzə körpüyə çatır. Bu zaman bir minik maşını

əylənir. Maşından iki zabit düşüb kəndə tərəf gedir. Maşının yanında o yan, bu yana var-gəl edən kişi ondan soruşur:

- Bu təzə körpünü sənmi saldırmısan?
- Yox, mən buralı deyiləm. Göyçədən köçüb gəlmişəm.
- Sən nə işdə işləyirsən?
- Orta təhsilli müəllimələm.
- Adın nədir?
- Mir Cəfər.
- Deməli, başqa Mir Cəfər də var?

Bu sözü eşitdikdə, gənc müəllim bu adamın Mir Cəfər Bağırov olduğunu anlayır, yerindəcə donub qalır. Sonra Mir Cəfər Bağırov əlini onun çiyninə qoyub deyir:

- Bu saat hamının güzəranı yaxşı deyil. Nə qədər çətinlik olsa da, hələ gəncsən, ali təhsil almağı unutma.

## Respublikadan kənara ki, çıxmırlar

Mir Cəfər Bağırova xəbər verirlər ki, Qərbi Azərbaycandan köçürüb gətirdiyiniz adamlar bir yerdə qərar tutmurlar. Gah o rayona, gah da bu rayona köçürlər. Mir Cəfər Bağırov deyir:

- Respublikadan kənara ki, çıxmırlar. Qoy haranı bəyənirlər bəyənsinlər, oranı özlərinə daimi yaşayış yeri seçsinlər.

## Vajak

Vajak qaraçıların başçısına deyilir. Bu barədə belə maraqlı əhvalat danışırlar ki, 1948-ci ildə Mikayıl Nəbiyev Bərdə rayonunun birinci katibi işləyərkən M.C.Bağırov ora gəlir. Mikayıl müəllim Bağırova çay süzür, o, içmir. Öz sürücüsünə göstəriş verir ki, çay termosunu onun maşınından gətirsin. Bağırov özünə və Mikayıl müəllimə

çay süzür. Süfrəyə zoğal mürəbbəsi qoyulur. Çayı içib qurtarandan sonra Bağırov deyir:

- Bərdə ilə Ağdaş arasında hansı sahələrdə qaraçılar yaşayırsa, bu gün ora getməliyik.

Onlar Ağdaş yaxınlığında qaraçı düşərgəsinə çatırlar. Bağırov qaraçılara müraciət edir:

- Sizin bir Vajak qadınınız vardı, dururmu?

- Yox, 3 il bundan əvvəl vəfat etmiş, yerinə yaşlı bir kişini Vajak seçmişlər. M.C.Bağırov Vajakı öz yanına çağırır, maşından bir neçə top parça çıxartdırıb Vajaka verir və deyir:

- Bu parçanı adamlar arasında düzgün bölüşdür. Adamları işə alışdır. Onları kəndlərdən oğurluq etməyə qoyma.

M.C.Bağırov yolda Mikayıl müəllimə deyir:

- Bəs nə üçün soruşmursan ki, Sizin qaraçılarla nə işiniz? Mikayıl, qulaq as, sənə bir qəribə əhvalat danışım. Qubada ibtidai sinifdə oxuyurdum. Bir gün dərsdən çıxıb evə gələrkən Qubanın ətrafında müvəqqəti düşərgə salmış qaraçıların özümdən böyük bir uşağı ilə savaşdım. Mən bu qaraçı oğlanı möhkəm əzişdirdim. Bu zaman qaraçılar üstümə töküldü. Qaraçıların başçısı Vajak qadın məni müdafiə etdi. O, qaraçı uşaqlarını möhkəm məzəmmətlədi. Qaraçı döyməlidir, döyülməməlidir - dedi.

Vajak qadın məni kənara çəkib dedi:

- Qoy sənin falına baxım. Oğlan, yadında saxla, sən hökmdar olacaqsan. O, zaman məni unutma.

Xeyli aralanmışdım ki, Vajak məni geri çağırıb, falıma bir də baxdı və dedi:

- Heyif ki, sənin ömrünün sonu katastrofla qurtaracaqdır.

Mən Mərkəzi Komitənin birinci katibi olandan sonra ildə bir, iki ildə bir Vajak qadınla görüşürdüm və onun

qaraçılarına hədiyyələr aparırdım. Bir neçə ildi ki, onunla görüşmək imkanım olmamışdı. Heyf ki, o Vajak qadın dünyasını dəyişmişdir.

## Stalinin zəngi

1946-cı ildə Stalin M.C.Bağırova zəng vurub deyir:

- İranla Sovet Azərbaycanının sərhədini bağlayıram!

M.C.Bağırov bu sarsıdıcı xəbərdən çox mütəəssir olur. Bir anın içində halı qarışır. Çarəsiz qalıb Stalindən xahiş edir ki, yoldaş Stalin, bircə ay möhlət verin ki, ikitərəfli təzyiq nəticəsində adamlar havayıdan Arazın sularına qərq olmasın.

Bağırov Arazın sahilinə gəlir, adamların qismən təhlükəsizliyini təmin edir. Onların respublikanın ayrı-ayrı rayonlarında yerləşməsinə şərait yaradır.

Belə deyirlər ki, M.C.Bağırov Arazin sahilində soydaşlarının acınacaqlı vəziyyətini müşahidə edib, başını iki əlləri arasına alıb sakitcə-sakitcə hönkür-hönkür ağlayır.

## «Sovet İttifaqı Qəhrəmanı» adını gizli saxlayır

Belə deyirlər ki, M.C.Bağırova Böyük Vətən müharibəsi dövründə SSRİ Ali Sovetinin qərarı ilə «Sovet İttifaqı Qəhrəmanı» adı verilmişdir. Lakin o, bu xəbəri açıb ağartmamış və yayılmasına imkan verməmişdir. M.C.Bağırov tərəfindən gizli saxlanılmış «Sovet İttifaqı Qəhrəmanı» adı onun ölümündən sonra xalqa məlum olmuşdur.

## Belə şey Nikolaydan qalır

Səhər-səhər artist Mirzağa Əliyevlə Ruhi rastlaşır. Əlini Mirzağanın qarnına vurub deyir:

- Bu, nə piydir belə?

Mirzağa gülə-gülə deyir:

- Bunlar Nikolaydan qalma şeydir, indi belə şey olmaz.

Ertəsi gün səhər tezdən Mirzağaya deyirlər:

- Sizi Mir Cəfər Bağırov çağırır.

Mirzağa Əliyev M.C.Bağırovun qəbuluna gəlir.

M.C.Bağırov deyir:

- Mirzağa, deyirlər Nikolayı tərifləyirsənmiş.

Mirzağa cavab verir:

- Yoldaş Bağırov, Nikolayın nəyini tərifləyəcəm? Ondan, bu səfeh piydən başqa nə qalar. Onun çörəyi Leninin çörəyi deyil ki, insanı sağlam və nəcib böyütsün.

Mirzağanın hazırcavablığı M.C.Bağırovun xoşuna gəlir və deyir:

- Get, işinlə məşğul ol. Özünü heç vaxt unutma.

Mirzağa birbaşa iş yerinə gəlir. Məşq qurtarandan sonra başını əlləri arasına alıb hönkür-hönkür ağlayır və əllərini göyə qaldırıb deyir:

- İlahi, taleyim məni nə yaxşı salamat saxladı.

## Bunlar nə kişi adammış

İrəvan bölgəsinin Vedi rayonunda adlı-sanlı bir kişinin yeddi oğlu var imiş. Müharibə vaxtı kişinin beş oğlunu müharibəyə çağırırlar. Kişi oğlanlarını yola salarkən deyir:

- Biz, oğlanlarımızı Vətəni qorumaq üçün böyütmüşük. Atanızın adına layiq vuruşun. Təslim olmayın. Gördünüz, sizi əsir alırlar, özünüzü öldürün.

Kişinin oğlanlarının hamısından «qara kağız» gəlir. Öldü xəbərlərinə belə cavab verir:

- Övlad Vətənindir, neyləmək olar.

Müharibə beş il uzanır. Növbə kişinin axırıncı iki oğluna da çatır. Kişi M.C.Bağırova teleqram vurur: «Mənim bildiklərimə görə, İttifaqda Stalin sizinlə dostdur. Ən çox eşitdiyi adam sizsiniz. Yoldaş Bağırov, yeddi oğlum var idi. Onun beşini Vətənə qurban verdim. İndi də yurduma su bağlayıb, axırıncı iki oğlumu da aparmaq istəyirlər. Stalinə çatdırın ki, xalq müharibəni dayandırmağı tələb edir. Mənə və mənim oğlanlarıma ümid olub, müharibəni uzatmasın. Xalq təngə gəlib. Müharibəni dayandırsın! ».

Bu elə bir vaxt olur ki, Almaniya məğlub olur və Sovet qoşunları Yaponiyaya girir və təslim aktından sonra müharibə dayandırılır.

M.C.Bağırov vedili ağsaqqalın yazısına cavab verir:

- Xalqımın qeyrətli oğlu, sizin teleqramınızı Stalinə çatdırdım. O, sizin sözünüzlə dərhal müharibəni dayandırdı.

Vedili ağsaqqal teleqramı adamlara göstərib deyir:

- Ə, bunlar nə kişi adamdırlar. Mən ağsaqqalın bir xahişi ilə müharibəni dayandırdılar. Belə bilsəydim, teleqramı bundan bir- iki il əvvəl göndərərdim.

## M.C.Bağırovun teleqramı

Əli Süleymanov Tovuz rayonunun Qovlar qəsəbəsində kolxoz sədri olarkən, 1950-ci ildə böyük bir mədəniyyət evi tikdirir. O dövr üçün belə mədəniyyət evinin tikilməsi bir möcüzə idi. Klubun açılışı münasibətilə M. C. Bağırov Əli Süleymanova təbrik teleqramı göndərir. Eyni zamanda Respublika Mədəniyyət Naziri, məşhur pambıqçı Bəsti Bağırova və Tovuz rayon partiya komitəsinin birinci katibi el arasında «Dörd göz» deyilən Məmmədov klubun açılışında iştirak edirlər. Sonra Respublika müşavirələrinin birində Mir Cəfər Bağırov Əli Süleymanovu ayağa qaldırıb ətrafdakılara deyir:

- Siz də kəndlərinizdə yolların çəkilməsinə, mədəniyyət evlərinin tikilməsinə bundan sonra xüsusi diqqət yetirin!

## Mir Cəfər Bağırov və çoban

Cəbrayıl rayonun qoyun sürüləri yaylağa üz tutmuşdu. Qəflətən Mir Cəfər Bağırov hardansa yaylaq yolunda peyda oldu. Çobanın qoyunu ekiz doğmuşdu. Quzunun hər birini xurcunun gözünə qoyub ulağa aşırmışdı. Mir Cəfər Bağırov çobanla salamlaşandan sonra soruşdu:

- Xurcunun gözündəki nədir?

Çoban tanımadığı adama belə cavab verdi:

- Ekiz doğmuş qoyunun quzularının hərəsini

xurcunun bir gözünə salmışam.

Bağırov gördü ki, çoban onu tanımır. Ona görə də deyir:

- Çoban qardaş, mənim qoyunumun balası ölüb, gəlsənə quzulardan birini mənə satasan.

Çoban cavab verir:

- Bu mənim şəxsi malım deyil, kolxozundur.

Bağırov deyir:

- Deyərsən ki, qoyun iki bala verməyib, bir bala verib.

Kişi əlini ağzına tutub yavaşdan dedi:-Elə söz danışma, Bağırov eşidər, sənin üçün də, mənim üçün də yaxşı olmaz.

- A kişi, Bağırov burada nə gəzir?

- Özü olmasa da, qulağı burdadır. O, Bakıdan baxanda yurdun hər guşəsini görür. O, müqəddəs adamdır. Heç nə onun gözündən yayınmır.

- Kişi, hansı kənddənsən?

- Cəbrayıl Mərcanlısındanam.

Çoban tanımadığı kişidən ayrılıb, yaylağa tərəf üz tutdu. Üç ay qoyun, quzunu yaylaqda bəslədi. Kəndə öz evlərinə dönəndə nə görsə yaxşıdır?! Evinin yerində iki mərtəbəli ev tikilmişdi.

Ona bildirdilər ki, yolda səninlə görüşüb, söhbət edən Mir Cəfər Bağırov olub. O dedi ki, sizin çoban çox vicdanlı adamdır. Onun evi hamının evindən gözəl və rahat olmalıdır. Biz də sənə iki mərtəbəli ev tikdik.

## Gərək Qafqaza mən gedəm

Mikoyan nə qədər çalışdısa Bağırovu mərdi-mərdanə yenə bilmədi. Hiylə maskasını üzünə taxıb Beriyanın yanına getdi:- Mən belə qərara gəlmişəm ki, Mir Cəfər Bağırovu

irəli çəkmək, siyasi büroya üzv gətirmək, Kremldə böyük vəzifədə yerləşdirmək lazımdır.

O bu addımı atarkən Nəriman Nərimanovu Moskvaya böyük vəzifəyə gətirib öldürdükləri kimi Bağırovu da həmin üsulla sıradan çıxarmağı nəzərdə tuturdu. Siyasi büronun yığıncağında Beriya həmin mətləbi ortaya atdı.

Stalin əlini bığına çəkib qımışdı:-

- Qafqazı – onun respublikalarını Böyük Vətən müharibəsi dövründə və indi intizamda saxlayan, asayişi bərpa edən Mir Cəfər Bağırovun şəxsiyyəti və nüfuzudur. Bağırovu Moskvaya gətirsək, onda gərək Qafqaza mən özüm gedəm.

## Beş min könüllü

Yenə də Böyük Vətən müharibəsinin qızğın çağında Mikoyan və onun əlaltıları Stalinə çatdırırlar ki, azərbaycanlılar cəbhəyə getməyəcək, dağlara çəkiləcək və türklərlə əlaqə saxlayacaq. Bundan xəbər tutan M.C.Bağırov Respublika Hərbi komissarı Balaəmini yanına çağırır və ona göstəriş verir ki, cəbhəyə könüllü getmək istəyənlərdən beş min nəfərinin ərizəsini al.

Balaəmi səhərə qədər yatmır. Beş min nəfər könüllünün ərizəsini alır və onları Biləcəri Toplanış Məntəqəsinə gətirir. Beş min nəfər könüllünün hazır olduğunu bilən M.C.Bağırov Biləcəriyə gəlir, oradan Stalinə zəng vurur və deyir:

- Yoldaş Stalin! Bakıda beş min nəfər könüllü cəbhəyə getmək üçün hazırdır.

Bir qədər fasilədən sonra Stalin cavab verir ki, hələlik ehtiyac yoxdur.

Bağırov qürur hissilə deyir:

- Yoldaş Stalin! Belə vətənpərvərləri olan xalq satqın ola bilərmi?

Bundan sonra M.C.Bağırov dərindən nəfəs salır və Balaəminə deyir:

- Azərbaycanı xilas edə bildik.

## Sən demə M.C.Bağırov imiş

Xan Qərvəndli bir həkim qeyd edir ki, 1959-cu ildir. Məktəbin arxasındakı bağda köhnə paltarlı, gözü eynəkli, əlində təsbeh bir kişi var-gəl edirmiş. Sonra məlum olur ki, bu M.C.Bağırovdur. Yerli camaatın vəziyyətini öyrənməyə gəlibmiş.

## Kişi, bilsək ki, burada neft var

Kəşfiyyat briqadası bildirir ki, indiki Goranboy ərazisində neft yatağı var. Həmin ərazidə böyük taxıl zəmisi yerləşirdi. Kolxoz sədri:- Qazıntı işinə taxıl biçini qurtardıqdan sonra başlamaq olar deyir. M.C.Bağırov gözlənilmədən həmin yerə gəlir. O, barmağını kolxoz sədrinin başına toxundurub deyir:

- Kişi, bilsək ki, burada neft var gözləmədən çıxardarıq.

## Gürcülər M.C.Bağırovu oğurlamaq istəyirdilər

Bakının Djerinski adına klubunda M.C.Bağırovun məhkəməsi gedirdi. Bir gün klubun ətrafını ikiqat əsgər qoruyurdu. Dedilər, ona görə M.C.Bağırovu ciddi

qoruyurlar ki, Gürcüstandan gürcülər gəlib onu oğurlayıb oradan çıxarmaq istəyirlər.

## Çekistlər onun papirosunu yandırmağa can atırlar

Böyük qadağalar olmasına baxmayaraq, məhkəmə salonunda M.C.Bağırov papiros qutusunun ağzını açanda çekistlər elə bil papirosu yandırmaq üçün bir-birilə bəhsləşirdilər. Biri o birindən tez M.C.Bağırovun papirosunu yandırmağa can atırdılar.

## O, çörək yeməyə getmir

Kərəməddin Beydulov nə vaxtsa M.C.Bağırovu qaçaqlarla mübarizə zamanı ölümdən xilas edib. O, əvvəlcə təhlükəsizlik komitəsində işləyirdi, sonra Şəkinin Aşağı Göynük kəndinə mühüm işlə əlaqədar gəlir. Onu Ləzgi Məhəmməd evinə qonaq çağırır. Beydulov təhlükəsizlik komitəsinin işçisi kimi bu dəvəti qəbul etmir. Məhəmməd kişi evdə plov hazırladıb, idarəyə gətirir və deyir:

- Göynüyə gələn heç bir qonaq Ləzgi Məhəmmədin çörəyini yeməmiş getməmişdir.

## Müğənnini bağışlayır

Böyük Vətən Müharibəsi zamanı nağara, zurna çalınır. Buraya bir nəfər müğənni də gəlir. Bu əhvalat Qaxın Qum kəndində baş vermişdir. Müğənni elə oxuyur ki, hamı ağlaşır. M.C.Bağırov həmin müğənnini yanına çağırtdırır və deyir:

- Səni ora göndərmişik ki, əsgərləri mahnı ilə ruhlandırasan. Sən isə camaatı ağladırsan.
M.C.Bağırov təklif edir ki, buna nə cəza verək?
Məmməd Səid Ordubadi yerindən dillənir:
- Güllələnmə!
M.C.Bağırov müğənnini bağışlayır. Bayıra çıxanda müğənni Ordubadiyə deyir:
- O, nə qansız təklif idi?!
Ordubadi cavab verir ki, mənim təklifim səni müdafiə etdi. Bağırovun xasiyyəti belədir. Mən sənin bağışlanmanı təklif etsəm, cəzan daha böyük olardı.

## Buğanı basdırdıqları yerdən çıxarırlar

İndiki Goranboy rayonunun kolxozlarının birində cins buğanın xəstələnib öldüyünü xəbər verirlər. Bir nəfər də Bağırova teleqram vurur ki, yalan deyirlər. Bağırov Goranboya gəlir, adamların iştirakı ilə buğanın basdırıldığı «qəbri» açdırır.
Həqiqətən buğanın xəstələnib öldüyünü yəqin etdikdən sonra geri qayıdır.

## Bəxtin hər işdə belə gətirsin

Mir Cəfər Bağırov dörd nəfər yoldaşla Moskvaya gedirmiş. Onların arasında əslən Lerikdən olan Mirzə Məmmədov da varmış.
Mir Cəfər Bağırovun təklifi ilə vaxt keçirmək üçün kupedə nərd oynayırlar. Üç nəfər qəsdən Bağırova uduzur. Mirzə Məmmədov isə güzəştə getmədən Bağırovu udur. Mirzənin cəsarəti Bağırovun çox xoşuna gəlir. Əlini

Mirzənin çiyninə qoyaraq zarafatla: - Mirzə, Allah eləsin hər işdə sənin bəxtin belə gətirsin! - deyir

## Bağırovun Cavidlə söhbəti

M.C.Bağırov günlərin birində görkəmli şair və dramaturq H.Cavidi yanına çağırır. Onunla bir neçə saat söhbət edir. Cavidi yeni cəmiyyətə – Sovet quruluşuna xidmət etməyə çağırır.

Hətta, yarızarafat, yarıciddi:

- Şair, göylərdən enib real həyatla ayaqlaşmağın vaxtı çatmışdır - deyir.

M.C.Bağırovun sözundən möhkəm hirslənən Cavid: - Yoldaş Bağırov, mən siyasətin nə olduğunu bilmədiyim kimi, siz də ədəbiyyatımıza mən qədər bələd deyilsiniz. Mən sizin bostanınıza daş atmadığım kimi, siz də mənim bostanıma daş atmayın – cavabını verir.

## Şeyx Şamil dərslikdən çıxarıldı

Orta məktəbin tarix dərsliyində Şeyx Şamilin şəkli və qısa tərcümeyi halı verilmişdir. Həm də Şeyx Şamil dağlıların milli qəhrəmanı, lideri kimi təsvir edilmişdi.

Bundan xəbər tutan Bağırov «Şamil hərəkatı və müridizm» əsərini yazaraq dərsliyin tərtibçisi professor Pankpatovanı kəskin şəkildə tənqid edir və dini fanatizmin zərərli nəticələrini göstərir. Çox ğeçmir ki, Şeyx Şamil tarix dərsliyindən çıxarılır və kitabın müəllifi həbs olunmaq və ya Sibirə sürgün edilmək təhlükəsi ilə üzləşir.

Bu barədə M.C.Bağırova məlumat veriləndə o, deyir:

- Pankpatova bir səhvə yol vermişdi, o da aradan qaldırıldı. Buna görə, ona cəza verməyi yersiz hesab edirəm.

M.C.Bağırovun bu sözündən Pankpatova sorğu-sualdan azad olur və rahat nəfəs alır.

## Xruşşov Bağırovdan intiqam alır

Böyük Vətən Müharibəsi illərində M.C.Bağırova xəbər çatır ki, Rostovda yerləşən Ordunun Komandanı azərbaycanlı döyüşçüləri «yoldaşı» adlandıraraq təhqir edir və kütləvi şəkildə güllələdir.

M.C.Bağırov təcili Rostova gedir və vəziyyəti yerindəcə öyrənir. Deyilənlərin həqiqət olduğunu biləndən sonra, Ordunun Komandanını əsgərlər qarşısında güllələyir. Oradan birbaşa İ.V.Stalinin yanına qayıdır, vəziyyət barədə ona ətraflı məlumat verir. M.C.Bağırovun təkidi ilə azərbaycanlılardan təşkil olunmuş 416-cı Taqanroq divizyası yaradılır. Bununla da azərbaycanlıların kütləvi şəkildə güllələnməsinin qarşısı alınır. Sonradan məlum olur ki, Bağırovun güllələdiyi Ordu Komandanı N.S.Xruşşovun qardaşı imiş.

Xruşşov əlinə imkan düşən kimi Bağırovdan intiqam alır və məhkəməni ona ölüm hökmü çıxartmağa məcbur edir.

## Bağırovun uzaqgörənliyi

Böyük Vətən Müharibəsindən sonra Tiflisdə yerləşən Qori Artilleriya məktəbində tez-tez ixtişaş baş verirdi. İ.V.Stalin ixtişaşı sakitləşdirmək, işləri yönünə qoymaq üçün M.C.Bağırovu Tiflisə göndərir. M.C.Bağırov məktəbə gəlir və hərbiçilərin siyahısını nəzərdən keçirir. Onlardan bir neçəsinin adını cib dəftərinə qeyd edir. Təhqiqat zamanı onların həqiqətən də günahkar olduqları təsdiq edilir.

## Şahlıq quşu

M.C.Bağırov rayon rəhbərlərinin işi ilə tanış olmaq, vəzifələrini necə icra etdiklərini öyrənmək məqsədilə tez-tez rayonlara səfərlər edərmiş. Günlərin birində o, Qaxa gəlir. Rayon fəallarını bir-bir ayağa qaldırıb onun işi və vəzifəsi ilə maraqlanır. Adamların içərisində ucaboylu, üzündən nur yağan bir nəfər onun diqqətini cəlb edir. Həmin adamı ayağa qaldırıb soruşur:

- Sənin vəzifən nədir?

- Yoldaş Bağırov, mən rayon zəhmətkeş deputatları soveti icraiyyə komitəsinin sədriyəm.

Sədrin ədəb-ərkanı da, cavabı da Bağırovun çox xoşuna gəlir. Ona görə də zarafatla:

- Bir zamanlar şah seçərkən adamları bir yerə yığar və quş uçurarlarmış. Quş kimin çiyninə qonsa onu şah seçərlərmiş. Yəqin ki, ucaboylu olduğun üçün quş sənin çiyninə qonub, sədr seçilmisən.

Görüşdə iştirak edənlər xorla:

- Yoldaş Bağırov, Beydulla Səmədov həqiqətən yaxşı işçidir – deyirlər.

- Madam ki, Beydullanı tərifləyirsiniz, azlıq çoxluğa tabedir. Biz də onu ömürlük şah-sədr seçdik – deyib – görüşü başa çatdırır.

## Bağırovun evi

Ü.Hacıbəyov və S.Vurğun Qubaya səfər edirlər. Onlar bir nəfərdən M.C. Bağırovun evinin yerini soruşurlar. Evi göstərərkən S.Vurğun deyir:

- Bu M.C.Bağırovun bacısı Seyid Fatmanın evidir. Bizə Bağırovun öz evini göstər. Həmin adam onlara

Bağırovun evini göstərir. Baxırlar ki, gediş-gəliş olmadığından həyəti ot-ələf basıb. Rayon Komsomol Komitəsinin katibini çağırırlar və bərk danlayırlar.

- Siz Bağırovun evini niyə belə saxlayırsınız?

Komsomol Komitəsinin katibi bir neçə gənclə qapının otunu təmizləyir və əhəng tapıb, evi çöl tərəfdən ağardırlar. Təxminən bu hadisə 1943-cü ildə olur. Bu əhvalatı M.C. Bağırova çatdırırlar. Bağırov Qubanın birinci katibi Ağamirzə Əhmədovu işdən çıxarıb başqa rayona göndərir və Qubaya adam göndərib öyrənir ki, bu işi kim görüb? Komsomol Komitəsinin katibini yanına çağırtdırır. Katib Bağırova bildirir ki, mən bunu öz başıma etməmişəm. S.Vurğun və Ü.Hacıbəyov məni məzəmmət etdilər ki, bu qapı-baca nə vəziyyətdədi, gözünüz görmürmü? Mən də bu sözdən təsirlənib bu işi gördüm. Bağırov deyir:

- Get bir halda ki, onlar deyib, günahın yoxdur.

## Qubada institut bağlanır

Şəkidə, Qazaxda, Zaqatalada və Qubada ikiillik Müəllimlər İnstitutu fəaliyyət göstərirdi. Moskvadan M.C.Bağırova bildirirlər ki, dörd institutdan biri bağlanmalıdır. Bağırov öz yurdu olduğu üçün Qubadakı İnstitutu bağlatdı.

## Rusun Bağırovdan papiros alması

M.C. Bağırova oğlu Cahangirin cəbhədə ölməsini xəbər verirlər. M.C.Bağırov məyus halda dənizə tərəf gedirmiş. Adamlar uzaqdan-uzağa onu izləyirlərmiş. Bağırovun qarşı tərəfindən sərxoş bir rus gəlir və ondan soruşur:

- Papirosun var?

M.C.Bağırov papiros qutusunun ağzını açıb: - Götür - deyir.

Rus papirosun birini qulağının dibinə qoyur, birini də əlinə alıb deyir:

- Deyəsən, yaman varlısınız ha. M.C.Bağırov gülür. Adamlar soruşduqda o, bu əhvalatı olduğu kimi danışır.

## Leninqradda xalq it-pişik əti yeyir

Qonaqkənddən bir çoban oğlu ilə kolxozun sürüsünü qışlağa gətirirdi.

Yolda çobana rast gələn Mir Cəfər Bağırov deyir:

- A kişi, bu qoyunlardan birini mənə sat.

- Çoban cavab verir:

- Qoyun mənim yox, kolxozundur.

Birdən Bağırovun gözü çobanın on iki yaşlı oğluna sataşır, uşağın paltarı nimdaş, ayaqqabısı isə cırıq olduğunu görür. Bağırov deyir:

- A kişi, uşaq payızın soyuğundan əsir, üşüyür, sənin insafın yoxdurmu?

Çoban hirslə:

- Bəs sənin insafın yoxdur? Leninqradda mühasirədə qalan adamlar it-pişik əti yeyir – cavabını verir.

Bağırov kişinin kürəyinə vurur və deyir:

- Afərin kişi, sizin kimi vətənpərvərlərimiz var, bu Vətən basılmaz.

---

[1] «Bağırovun evi», «Qubada institut bağlanır», «Rusun Bağırovdan papiros alması», «Leninqradda xalq it-pişik əti yeyir» adlı rəvayətləri professor Məmməd Əliyev qubalılardan və qonaqkəndlilərdən eşidib yazıya almışdır.

## SƏDNİK PAŞA PİRSULTANLININ (PAŞAYEVİN) TƏRCÜMEYİ - HALI

Sədnik Xəlil oğlu Paşayev (Pirsultanlı) 1929-cu ildə Daşkəsən rayonunun Qazaxyolçular (Pirsultan köyü hissəsində) kəndində anadan olmuş, 1949-cu ildə Dəstəfur kənd orta inernat məktəbini bitirmişdir. 1954-cü ildə Gəncə Dövlət Universitetinin (Keçmiş Gəncə Dövlət Pedoqoji İnstitutunun) dil və ədəbiyyat fakültəsini bitirdikdən sonra rayon və şəhər qəzetlərində xüsusi müxbir, ədəbi işçi, məsul katib və redaktor vəzifələrində çalışmışdır. S.X.Paşayev uzun illər «Yeni Daşkəsən», «Mübariz» (Goranboy rayonlararası) və «Yenilik» (Kəlbəcər) qəzetlərinin redaktoru işləmişdir.

1960-cı ildə SSRİ Jurnalistlər İttifaqının üzvü seçilmişdir. 1970-ci ilin may ayının 5-də Azərbaycan Respublikası Jurnalistlər İttifaqının Fəxri Fərmanı ilə təltif olunmuşdur.

1970-ci il oktyabr ayının 19-dan etibarən hal-hazıradək Gəncə Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı və onun tədrisi metodikası kafedrasının müəllimi, baş müəllimi, dosenti və professoru kimi əmək fəaliyyətini davam etdirir. O, müntəzəm olaraq televiziyada, radioda, mərkəzi və yerli mətbuatda çıxış edir. Dövlət televiziyası AZTV onun həyatı və fəaliyyəti haqqında «Pirsultanlı» adlı sənədli film çəkmişdir.

1970-ci ildə «Ağdabanlı Qurban və onun müasirləri» mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

1982-ci ildə İnstitutda və şəhərin ictimai həyatında fəal iştirak etdiyini və mavi ekranda müvəffəqiyətli çıxışlarını nəzərə alaraq Sədnik Xəlil oğlu Paşayevin bədii rəhbərliyi və böyük zəhməti sayəsində «Çeşmə» folklor teatrının kollektivinin 15 nəfər üzvünə «TƏŞƏKKÜR» elan

edilmişdir. O, belə təşəkkürlərə: 1987-ci ildə «Çeşmə» folklor ansamblının Gəncə rayonu üzrə keçirilən bədii-özfəaliyyət kollektivlərinin baxış müsabiqəsində qalib gəlməsinə, həmin ilin avqust ayında keçirilən Nizami poeziya günlərində «Çeşmə» folklor teatrının müvəffəqiyətli çıxışlarına, iri həcmli dərslik, dərs vəsaiti və kitab nəşr etdirdiyinə görə isə 1989-cu ildə və 1990-cı ildə layiq görülmüşdür.

22 dekabr 1982-ci ildə Ali Attetasiya Komissiyasının qərarına əsasən ona dosent elmi adı verilmişdir.

1990-cı ildə «Azərbaycan xalq əfsanələri və onun tədqiqi problemləri» mövzusu üzrə doktorluq dissertasiyası müdafiə etmişdir.

17 sentyabr 1992-ci ildə S.Paşayev professor elmi adı almışdır. Təhsil Nazirliyi tərəfindən «Fəxri fərman»la təltif olunmuşdur.

Respublikanın əməkdar mədəniyyət işçisi və qabaqjıl ali təhsil işçisidir eyni zamanda bu günlərdə «əməkdar müəllim» adına layiq görülmüşdür.

Hal-hazırda 50-yə yaxın artıq kitabın, yüzlərlərlə elmi əsərlər toplusunda və jurnallarda, mərkəzi qəzetlərdə çap olunmuş məqalələrin müəllifidir.

S.Paşayev həmişə mütaliə edən, qayğıkeş, xeyirxah, humanist xarakteri ilə başqalarına nümunə olan tədqiqatçı alim və müəllimdir.

Prof. S.X.Paşayevin elmi tədqiqatının əsas məqsədi Azərbaycan xalq əfsanələrinin folklorun müstəqil janrı kimi öyrənilməsi, o cümlədən onun epik ənənələrinin (eposların, dastanların) formalaşmasında və yazılı ədəbiyyatda klassiklərin yaradıcılığında rolunu müəyyən etməkdir.

Ozan-aşıq yaradıcılığınının tədqiqi ilə ardıcıl məşğuldur, səkkiz şeir kitabının müəllifidir. Respublikanın Əməkdar mədəniyyət işçisidir. Türkiyədə nəşr edilən «Dost-

dost» və «Milli folklor» jurnallarının Azərabycan təmsilçisi, eyni zamanda ölkəmizdə fəaliyyət göstərən «Pirsultan» nəşriyyat-poliqrafayası, «Yurddan səslər» jurnalı, «Xalq ozanı» qəzetinin təsisçisidir. Yazıçılar Birliyinin üzvüdür, Əmək və Müharibə veteranıdır. Respublikanın Fəxri Ziyalılar Diplomuna layiq görülmüşdür.

AMEA folklor institutunun müdafiə şurasının üzvüdür.

Gəncliyində bədii yazılarını «Qoşqardağlı» imzası ilə yazmasına baxmayaraq, sonralar bu imzanı dəyişərək həm Pirsultan dağı ətəyində dünyaya gəldiyinə, həm də Pirsultan nəsil-soyundan olduğuna görə «Pirsultanlı» təxəllüsünü seçmişdir. Həmin nəsil-soy şair-aşıq Pirsultan Abdalı özlərinin ulu əcdadı hesab edir.

**Sədnik Paşa Pirsultanlının (Paşayevin) kitablarının siyahısı**

**Kitablar:**

1. Lalə (Aşıq Bəsti), Gənclik, Bakı, 1969
2. Yaşayan əfsanələr, Gənclik, Bakı, 1973
3. Xəstə Qasım, Gənclik, Bakı, 1975
4. Yurdumuzun əfsanələri, Gənclik, Bakı, 1976
5. Nizami və folklor, Bilik, Bakı, 1976
6. Yanardağ əfsanələri, Gənclik, Bakı, 1978
7. Azərbaycan xalq yaradıcılığının inkişafı, Bilik, Bakı, 1981
8. Nizami və xalq əfsanələri, Gənclik, Bakı, 1983
9. Bayatılar (top. V.Vəliyev, S.Paşayev), Yazıçı, Bakı, 1985
10. Azərbaycan əfsanələrinin öyrənilməsi, Bilik, Bakı, 1985
11. Azərbaycan xalq əfsanələri, Yazıçı, Bakı, 1985
12. Azərbaycan mifoloji mətnləri, Elm, Bakı, 1988 (Toplayanlar Sədnik Paşayev, Maqbet Əhmədov, Arif Rəhimov, Arif Ajalov)
13. Azərbaycan folkloru və aşıq yaradıcılığı (dərs vəsaiti), Azərbaycan Dövlət Universiteti nəşriyyatı (Azərbaycan Xalq Təhsil Nazirliyinin qrifi ilə), Bakı 1989
14. Azərbaycan xalq dastanlarının tədrisinə dair (metodik göstəriş), Bakı, 1989
15. XIX əsr Azərbaycan aşıq yaradıcılığı (dərs vəsaiti), Azərbaycan DPİ-nin nəşriyyatı, Bakı, 1990
16. Öz səsim (şerlər), İdeya, Gəncə, 1990
17. Azərbaycan xalq söyləmələri, Yazıçı, Bakı, 1992
18. Pirsultan bulağı (şerlər), Elm, Bakı, 1994
19. İnciçiçəyim (şerlər), Gəncə, 1996

20. Karağan Usubun lətifələri, Gəncə, 1997, təkrar 2000, 2001
21. Xalqın söz mirvariləri, Azərnəşr, 1999
22. İlahi bir səs (şerlər), Gəncə, 1999
23. Unnu Ağcanın lətifələri, «Ekologiya» nəşriyyatı, Gəncə, 1999
24. Ağdabanlı şair Qurban, Gənclik, 2000
25. Dabravol Qasımın lətifələri, Gəncə, «Əsgəroğlu», 2001
26. Yəhya bəy Dilqəmə el-oba məhəbbəti, Gəncə, «Agah» 2001
27. Aşıq Bəsti. Bənövşələr, Gəncə, «Əsgəroğlu», 2001
28. Heca vəznli şer və mənzum ata sözləri, Gəncə, «Əsgəroğlu» 2001
29. Heca vəznində tapmacaların inkişafı, Gəncə, «Agah», 2001
30. Azərbaycan eposunun əfsanə qaynaqları Azərnəşr, Bakı, 2002
31. Qaraxanlı Künə Dəmirin lətifələri Gəncə, «Pirsultan», 2002
32. Qamışlı şair Rüstəm, Laçın qaya çal yadıma düşəndə, Gəncə «Pirsultan», 2002
33. Ozan-aşıq sənətinin nəzəri məsələləri, Bakı, «Ozan», 2002
34. Ozan-aşıq yaradıcılığına dair araşdırmalar, I cild, Gəncə, «Pirsultan», 2002
35. Ozan-aşıq yaradıcılığına dair araşdırmalar, II cild, Gəncə, «Pirsultan», 2002
36. Bir içim nəğmə, Gəncə, «Pirsultan», 2003
37. Heca vəzninin bayatı və qoşma möcüzələri Gəncə, «Pirsultan», 2003
38. Gəncəbasar lətifələri. Gəncə, «AGAH» 2005
39. Bir çiçək də vətəndi. Gəncə, «AGAH», 2005

40. Mir Cəfər Bağırov yaddaşlarda, «Pirsultan», Gəncə, 2005
41. Yuxular olmasaydı, «Pirsultan», 2002;
42. Ozan-aşıq sənətinin nəzəri məsələləri, Bakı, «Ozan», 2002;
43. Eldən-obadan eşitdiklərim . Gəncə, «Agah», 2005;
44. Yıldızlardan əsən külək. Gəncə, 2006;
45. Azərbaycan folkloruna dair tədqiqlər. Gəncə, 2006;
46. Publisistika və folklor. Gəncə, 2007;
47. Azərbaycan əfsanə və rəvayətlərinin ədəbi abidələrimizlə müqayisəli tədqiqi. Bakı Elm 2007;
48. Sədnik Paşa Pirsultanlı. «Pirsultan pinarı» (şeirlər). Pirsultan, 2007;

**Mündəricat**


Tarixi şəxsiyyətlər haqqında xalqın öz sözü var……. **3**
Kişi gülləsi ilə ……………………………………….. 11
Sənə də ibrət olsun …………………………..…….. **11**
Üç uşaq və ana ……………………………………… **13**
Mayıl körpüsü ……………………………………….. **14**
Ağ at Mir Cəfəri heyrətə gətirir ……………………... **14**
Təbrik teleqramı ……………………………….......... **16**
Ağ atın dəfni ……………………………………..….. **17**
Zal oğlu Məhəmmədin vəsiyyəti …………….……... **18**
Qartopu və rektorun taleyi ………………….……… **19**
Yol əhvalatı …………………………………………... **19**
Ağa dayının aqibəti …………………………………… **19**
Hünərinə görə Məliyi bağışlayır ……………..……….. **20**
Mir Bəşir Qasımovun bəxti gətirir …………………… **21**
Qaçaq Məmmədqasım və Bağırov ………………..... **22**
Stalinlə Mir Cəfər Bağırovun əlaqəsi necə yaranır …….. **23**
Haqlı şikayət və yanıqlı səs ………………………….. **25**
Mir Cəfər Bağırov hədiyyə saatını qaytarır ……….. **27**
Mir Cəfər Bağırovun gözündən yaş axır …………... **27**
Kaş o yumruq həmişə başımızın üstündə olardı …... **28**
Eynək məsələsi ………………………………………. **29**
Dövran bizimkidir ………………………………….. **29**
Bir qubalı kifayətdir …………………………………. **29**
Haradan gəlmisən? …………………………………... **30**
Mən xalqa düşmən olmamışam …………………….. **30**
Uşağın torpaqbasdı istəməsi ……………………….. **31**
Altı çamadanın hamısı kitabla dolu idi ……………. **31**
Bağırovun sözü söz idi ……………………………… **32**
Mir Cəfər Bağırovun göz yaşları …………………… **32**
Əhsən, Bəsti ……………………………………….... **33**

Evinə qayıt ........................................................ 34
Bağırov xeyirxah insana kömək edir .................. 35
Təzə yol çəkilir .................................................. 35
Qarının evi yanmışdı ........................................ 36
On nəfərdən birincisi Səməd Vurğun olmalıdır ...... 37
Konvel fabriki dayandırılır ................................ 38
Raykom özü öz cəzasını verdi .......................... 38
Onu da deməyiblər ............................................ 39
Cəngi havası ...................................................... 40
Məhkəmədən fraqment ...................................... 40
Yenə içəcəyəm .................................................. 41
Ananın məktubu ................................................ 42
Fonddan yüz manat .......................................... 43
Kartof satan kişi ................................................ 43
Papaq qeyrətdi .................................................. 44
Stalin deyir: - Bağırovsuz heç bir qərar qəbul
etmək olmaz! ..................................................... 45
Stalin və Bağırov dostluğuna nümunə ................ 46
Çay məsələsi ..................................................... 46
Məşədi Abbas ................................................... 47
Sən çekist deyilsən ........................................... 48
Misəritmə zavodu ............................................. 48
Qızqayıt Həsənova ........................................... 49
Kinto ................................................................. 49
Məzahir Daşqının məktubu ................................ 50
Savalan kişi və M.C.Bağırov ............................. 51
M.C.Bağırovla və Beriyanın əlaqəsi .................. 51
Sən azərbaycanlısan? ........................................ 52
Kişi məsələsi ..................................................... 52
Atına heykəl qoyulub ........................................ 53
M.C.Bağırov Qərbi azırbaycanlıların
Qazaxıstana köçürülməsinin qarşısını alır............ 53
«Ayrı Mir Cəfər də varmış» .............................. 54

Respublikadan kənara ki çıxmırlar ..................... 55
Vajak ............................................................... 55
Stalinin zəngi ................................................ 57
«Sovet İtifaqı Qəhrəmanı» adını gizli saxlayır ........ 57
Belə şey Nikolaydan qalır .................................. 58
Bunlar nə kişi adammış ...................................... 59
M.C.Bağırovun teleqramı ................................... 60
M. C. Bağırov və çoban....................................... 60
Gərək Qafqaza mən gedəm................................. 61
Beş min könüllü................................................ 62
Sən demə Bağırov imiş...................................... 63
Kişi, bilsək ki, burada neft var............................ 63
Gürcülər M.C.Bağırovu oğurlamaq istəyirdilər ......... 63
Çekistlər onun papirosunu yandırmağa can atırlar................................................... 64
O, çörək yeməyə getmir...................... ........... 64
Müğənnini bağışlayır......................................... 64
Buğanı basdırdıqları yerdən çıxarırlar.................. 65
Bəxtin hər işdə belə gətirsin............................... 65
Bağırovun Cavidlə söhbəti.................................. 66
Şeyx Şamil dərslikdən çıxarıldı........................... 66
Xuruşov Bağırovdan intiqam alır......................... 67
Bağırovun uzaqgörənliyi..................................... 67
Şahlıq quşu..................................................... 68
Bağırovun evi.................. .............................. 68
Qubada institut bağlanır..................................... 69
Rusun Bağırovdan papiros alması......................... 69
Leninqradda xalq it-pişik əti yeyir....................... 70
Sədnik Paşa Pirsultanlının tərcümeyi-halı............. 71
Sədnik Paşa Pirsultanlının kitablarının siyahısı....... 74